

## XİN: “Ermənistanın təxribatçı addımı beynəlxalq vasitəçilərin səylərinə kölgə salır”

2

# Bütün yollar QARABAĞA aparır!

3

Səs
№ 101 (6542) 9 iyun 2022-ci il. Qiymәti 60 qəpik

*“Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür, tarixi bir gündür. Bu gün Füzuli-Şuşa avtomobil yolunun təməli qoyulur. Bu münasibətlə Azərbaycan xalqını təbrik edirəm. Bu yolun çox böyük əhəmiyyəti var. Çünki bu yol bizi Qarabağın tacı olan Şuşa şəhərinə aparır.”*




# 9 İyun - Azərbaycanı Qurtuluşa aparan tarixi yol

*1993-cü ilin 9 iyun tarixi Azərbaycan dövlətçiliyinin, müstəqilliyinin xilası günü olaraq tariximizdə yer alıb. Həmin tarixi gündə Ümummilli Lider Heydər Əliyev xalqın çağırışına səs verərək Naxçıvandan Bakıya qayıdıb, müstəqilliyimizi və dövlətçiliyimizi...*



8

## “Sülh sazişinin imzalanması region üçün əhəmiyyətlidir”



6

## “Qarabağın qalan kiçik hissəsi də istənilən halda Azərbaycana qayıdacaq”



10

*Ötən cümə günü Ermənistan hakimiyyəti müxalifətin Ermənistan-Azərbaycan nizamlanması və Ermənistan-Türkiyə münasibətlərinin normallaşması ilə bağlı şərtlərini təsdiqləməyi planlaşdırdığı ölkə parlamentindəki iclasını pozub.*

## Silahlanma nə qədər davam edəcək?

12



*Dünyanın geosiyasi mənzərəsinə nəzər saldıqda, tamamilə fərqli görüntü müşahidə edilir və artıq bir çox dövlətlərin bir-birinə əzələ nümayiş etdirdiyinin şahidi oluruq.*

## Ağbulaq-Naxçıvanın dörd fəsil turizm ilki

Qədimliyi və təbii gözəllikləri ilə hər zaman qürur duyduğumuz Naxçıvan bir-birindən səfalı, bənzərsiz, hər fəslinin öz füsnu ilə bu yerlərə gələnlərdə, bu gözəllikləri görənlərdə unudulmaz təəssüratlar yaradır.

7





## Çin ilə Avropanı birləşdirəcək multimodal dəhliz Azərbaycandan keçəcək

10

*Asiya və Sakit okean regionu ölkələri - Çin-Qırğız Respublikası-Özbəkistan-Türkmənistan-Azərbaycan-Gürcüstan-Türkiyə-Avropa...*



## Messi çox qol vuracaq, Ronaldo qazandıracaq

16

*İllərdir bir-birinə əzəli rəqib sayılan Kriştianu Ronaldo ilə Lionel Messi yaşlanmalarına baxmayaraq, qollarını sıralamaqda davam edir...*

# Bakıya gözəllik verən yeni park və xiyabanlar...

## Prezident İlham Əliyev Bakıda yeni salınmış "Çəmbərəkənd" parkında yaradılan şəraitlə tanış olub





***Azərbaycan Prezidenti İlham Əliyev paytaxtın Səbail rayonunda yeni salınmış "Çəmbərəkənd" parkında yaradılan şəraitlə tanış olub. Daha sonra Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına parkda görülən işlər barədə məlumat verib.***

Bildirilib ki, paytaxtın Həsən Seyidbəyli küçəsində istifadəsiz ərazidə salınmış yeni parkda yaşıllaşdırma işləri aparılıb, 1200 metr uzunluğunda piyada yolları salınıb, sakinlərin mənalı istirahəti və asudə vaxtlarını səmərəli keçirmələri üçün hər cür şərait yaradılıb. Parkda estakada üzərində piyadalar üçün 147 metr uzunluğunda körpü salınıb, şəhər mənzərəli iki terras düzəldilib, müasir standartlara cavab verən fəvvarə inşa edilib, ərazidə iaşə obyekti, sanitar qovşaq və inzibati bina tikilib. Ərazinin relyefinə uyğun olaraq sürüşmənin qarşısını almaq üçün istinad divarı çəkilib. Həmçinin ərazidə müasir idman və uşaq əyləncə qurğuları quraşdırılıb. Ərazisi 4 hektar olan parkın yaşıllıq sahəsinə qazon örtük döşənib, 50 mindən çox müxtəlif növ ağac, kol və güllər əkilib.

Daha sonra Prezident İlham Əliyev yeni parkdan paytaxtın mənzərəsini seyr edib.

Qeyd edək ki, Prezident İlham Əliyevin Azərbaycanın inkişafı ilə bağlı müəyyənləşdirdiyi strategiyada Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində görülən işlərin miqyası ilbəil daha da artır. Son illərdə paytaxt sakinlərinin və şəhərimizə gələn qonaqların rahatlığına xidmət edən çoxlu müasir sosial infrastruktur layihələri icra edilib, yeni park və xiyabanlar, istirahət guşələri yaradılıb. Dövlətimizin başçısının təşəbbüsü ilə paytaxtın Səbail rayonunda salınan "Çəmbərəkənd" parkı da onlardan biridir. Burada görülən işlər ölkədə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının tərkib hissəsi olmaqla paytaxtımızın daha da gözəlləşməsinə xidmət edir.



## Rəsmi xronika

Prezident İlham Əliyev R.T.Orucovun Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin birinci müavini təyin edilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, Rəşad Temraz oğlu Orucov Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin birinci müavini təyin edilib.

* * *

Prezident İlham Əliyevin digər Sərəncamı ilə Əliyar Qəhrəman oğlu Məmmədyarov Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini təyin edilib.

* * *

Prezident İlham Əliyev "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 13 may tarixli 535-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2005-ci il 1 mart tarixli 203 nömrəli, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2012-ci il 6 iyun tarixli 648 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 13 may tarixli 536-VIQD nömrəli Qanununun tətbiqi və "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli 540 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

## XİN: "Ermənistanın təxribatçı addımı beynəlxalq vasitəçilərin səylərinə kölgə salır"

İyunun 8-də Ermənistanın Baş prokuroru Azərbaycan Respublikasının ərazisinə qanunsuz səfər edərək, qondarma qurumun "nümayəndəsi" ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsi Ermənistanın Baş prokurorunun ərazilərimizə qanunsuz səfərini şərh edib. "Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına qarşı atılan bu addım beynəlxalq hüququn fundamental norma və prinsiplərini pozmaqla yanaşı, postmünaqişə mərhələsində Ermənistan və Azərbaycan arasında münasibətlərinin normallaşmasına, o cümlədən bölgədə sülh və təhlükəsizliyin bərqərar olması istiqamətində göstərilən səylərə ciddi xələl gətirir.



Ermənistan tərəfinin bu məsuliyyətsiz və təxribatçı addımı, bu ölkənin normallaşma prosesində səmimi olmadığını, o cümlədən beynəlxalq vasitəçilərin səylərinə kölgə saldığını bir daha nümayiş etdirir.Bu təxribatçı addımın bütün məsuliyyəti Ermənistan tərəfinin üzərindədir", - deyə XİN-in şərhində bildirilib.

## Binəli Yıldırım: "Bundan sonra Ermənistan bölgənin sülh və sabitliyinə töhfə verməlidir"




Qarabağın 30 illik işğalı dövrü ərzində bir milyondan artıq azərbaycanlı qardaşlarımız öz yurd-yuvasını tərk etmək məcburiyyəti qarşısında qaldı. Bu dövr ərzində baş qaldıran iqtisadi böhran səbəbindən erməni xalqı da bir çox çətinliklərlə üzləşdi. ATƏT-in Minsk qrupu, Birləşmiş Millətlər Təşkilatı bu otuz il ərzində sadəcə danışdı və heç bir nəticəyə gələ bilmədi. Nəhayət ki, Azərbaycanın 44 günlük Vətən müharibəsi ilə bu problem öz həllini tapdı.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin sabiq Baş naziri, Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım İstanbulda keçirilən XXV Avrasiya İqtisadi Zirvə toplantısında çıxışı zamanı bildirib.

Hazırda bölgə xalqları kimi bizim üzərimizə düşən vəzifənin bu coğrafiyanın inkişafına töhfə vermək, buranı sülhün və əmin-amanlığın məskəninə çevirmək olduğunu deyən Binəli Yıldırım qeyd edib ki, indi uğurla atılan addımlar var və bu addımlar öz bəhrəsini verir. "Nəhayət, Zəngəzur dəhlizi ilə bağlı razılığa gəlindi. Uzun illərdir tərk edilən Qarabağın infrastrukturu Azərbaycan dövləti tərəfindən yenidən qurulur, yollar və kommunikasiya xətləri çəkilir. Türkiyə olaraq bizim bütün bu olanlara münasibətiniz aşkardır. Bundan sonra Ermənistan xarici qüvvələrin onun daxili işinə qarışmasına imkan verməməli, öz xalqının, dövlətinin, bütün bölgənin sülh və sabitliyinə töhfə verməlidir. Ermənistanın bu istiqamətdə atdığı hər addıma qarşılıq olaraq biz bir neçə addım atacağıq", - deyə B.Yıldırım vurğulayıb.

# Bütün yollar QARABAĞA aparır!

*"Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür, tarixi bir gündür. Bu gün Füzuli-Şuşa avtomobil yolunun təməli qoyulur. Bu münasibətlə Azərbaycan xalqını təbrik edirəm. Bu yolun çox böyük əhəmiyyəti var. Çünki bu yol bizi Qarabağın tacı olan Şuşa şəhərinə aparır."*

Bəli, bu gün ölkəmizin davamlı inkişafına, xalqımızın rifahının yüksəlişinə xidmət edən, sürətlə yeniləşən və müasirləşən yol infrastrukturu da müstəqil dövlətçiliyimizin çox mühüm nailiyyətlərindəndir. Ölkəmizin yol infrastrukturu sahəsində əldə etdiyi uğurların təməlində heç şübhəsiz əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulan xarici və daxili siyasət dayanır. "Yol - mədəniyyət, iqtisadiyyat, bir sözlə, həyat deməkdir" - Ulu öndərin bu sözləri Onun yol təsərrüfatının inkişafına nə qədər böyük önəm verdiyini bir daha təsdiqləyir.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin inkişaf strategiyasını uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev hazırda ölkə həyatının bütün sahələri ilə yanaşı, yol təsərrüfatı infrastrukturunun sistemli və hərtərəfli inkişafına xüsusi diqqət göstərir.

## AZƏRBAYCANIN YOL İNFRASTRUKTURU 141 ÖLKƏNİN ARASINDA ƏN ÖNCÜLLƏRDƏN BİRİ OLDU

Məhz bu sahədə həyata keçirilən uğurların nəticəsidir ki, Azərbaycan yol infrastrukturunun keyfiyyətinə görə bir sıra Avropa ölkələrini qabaqlayıb. Belə ki, Azərbaycan Dünya İqtisadi Forumunun hazırladığı "Qlobal rəqabətqabiliyyətlilik indeksi"nin "Yol infrastrukturunun keyfiyyəti" göstəricisində 141 ölkə arasında 27-ci yeri tutub. Azərbaycan bu göstəricidə Türkiyə (31-ci yer), Böyük Britaniya (36-cı yer), Litva (39-cu yer),



İLHAM ƏLİYEV: "Bu yol bizi Qarabağın tacı olan Şuşa şəhərinə aparır"

diş-gəlişinin təminatında əhəmiyyətli rol oynayacaq və ən mühüm məsələ Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsinin yaranmasına böyük töhfə verəcək. Bundan başqa, Qarabağda Füzuli-Hadrut, Zəngilan-Horadiz, eləcə də Bərdə-Ağdam avtomobil yollarının artıq təməlləri qoyulub. Həmçinin, Laçın şəhərinə daxil olmadan yeni alternativ avtomobil yolu çəkilir. Bu yolun uzunluğu təxminən 80 kilometr olacaq...

Azərbaycan Prezidenti İlham Əliyev ötən il avqustun 29-da Əhmədbəyli-Füzuli-Şuşa Zəfər yolunda son tamamlama işləri ilə tanış olarkən məlumat verildi ki, Zəfər yolunun tikintisi artıq başa çatmaq üzrədir. İki-üç hərəkət zolaqlı yolun uzunluğu 101 kilometrdir. Artıq yolun 92 kilometrlik hissəsinə asfalt-beton örtüyü salınıb. Digər hissələrdə isə işlər davam etdirilir. Yolda körpülər və yeraltı keçidlər inşa edilib.

"Zəfər yolu" Qarabağın inkişaf planı nəzərə alınmaqla 2-ci texniki dərəcəyə uyğun inşa edilir. Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə "Zəfər yolu" Qarabağımızın tacı olan Şuşa şəhərinə qədər uzanır.

Yeni inşa edilən yol boyunca layihəyə uyğun 4 yeni avtomobil körpüsünün inşası yekunlaşdırılıb. Körpülərin uzunluqları 45, 80 və 90 metr olmaqla yolun 26.9-cu, 37.2-ci, 37.5 və 57.3-cü kilometrlik hissələrində inşa edilib. Bununla da bu avtomobil yolu ilə rahat gediş-gəliş təmin olunub.

Azərbaycan Prezidenti İlham Əliyev avqustun 30-da Şuşada Vaqif Poeziya Günlərinin rəsmi açılışında çıxışı zamanı dedi: "Şuşanın bərpası yanvarın 14-dən başlanmışdır və qısa müddət ərzində böyük işlər görüldü. İlk növbədə, yol çəkildi. İndi gəldiyiniz Zəfər yolu nə vəziyyətdə idi biz onu yanvarın 14-də gördük. Biz Füzulidən təqribən iki saat yarıma-üç saata gəldik. Şaxtalı, qarlı hava idi, yol da yox idi, bir cığır idi, üstü buz, palçıq. İndi isə artıq asfalt yol tikilib və bu, elə Zəfər yoludur. Magistral yol da çəkilir. Füzuli şəhərindən tunellər daxil olmaqla, magistral yol tikilir, daha qısa yol olacaq...".

Onu da qeyd edək ki, bu günlərdə Azər-





İtaliya (53-ci yer) kimi ölkələri qabaqlayıb. Bu reytinqdə birinci yerdə Sinqapur qərarlaşıb. Yol infrastrukturunun keyfiyyətinə görə Azərbaycanın 141 ölkə arasında 27-ci yerdə olması təbii ki, olduqca yaxşı göstəricidir. Dünyanın 141 ölkəsi arasında belə yüksək nəticənin əldə olunması son illər Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla aparılan yol infrastrukturunun genişləndirilməsi və təkmilləşdirilməsi işlərinin məntiqi nəticəsidir.

Ən əsası isə, işğaldan azad edilmiş bütün ərazilərdə mövcud yolların mina və döyüş sursatlarından təmizlənərək bərpası və yeni yolların təmizlənməsi işlərinin aparılmasıdır.

## QARABAĞDA SALINAN YOLLAR BÜTÜN REGİONUN GƏLƏCƏK YÜKSƏLİŞİNƏ HESABLANIB

Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, 30 il sürmüş münaqişə öz həllini tapdıqdan sonra regional əməkdaşlıq və inkişaf üçün yeni imkanlar açılıb. Azərbaycan əməkdaşlığa, düşmənçilik səhifəsini geridə qoymağa, regionda proqnozlaşdırıla bilən daha yaxşı vəziyyəti təmin etmək üçün qonşularımızla dürüst şəkildə işləməyə hazırdır.

İşğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilməsinə başlanan layihələr bu sözlərin əyani təsdiqidir. Bunların arasında yol layihələrinin öz yeri var. İndi həmin ərazilərdə avtomobil yollarının çəkilişi də diqqət mərkəzindədir. Dövlət başçısı Füzuli və Xocavənd rayonlarına səfəri zamanı bunu bir daha vurğulamışdır. Avtomobil yolları inşasının azad edilmiş ərazilərin bərpası üçün böyük əhəmiyyət daşıdığını bildirmişdir.

## BÜTÜN YOLLAR QARABAĞA APARIR: İNFRASTRUKTUR SÜRƏTLƏ QURULUR

Azərbaycanın dövlət başçısının işğaldan azad olunan ərazilərə hər səfərində hansısa strateji əhəmiyyətli yolun və ya hava limanının təməli qoyulur. Misal üçün, Prezident İlham Əliyev cari il yanvarın 14-də işğaldan azad olunan Füzuli rayonuna səfəri çərçivəsində Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27-ci kilometrində Füzuli-Şuşa yolunun, həmçinin Füzuli rayonunda hava limanının təməllərini qoydu.

Füzuli-Şuşa yolunun yeni işlənmiş layihəsinə körpü və tunellərin inşası daxildir. Çətin relyefə malik olan ərazilərdə dolama yolların yerinə körpü və tunellərin tikintisi nəzərdə tutulur. Yeni yol Füzuli hava limanı ilə əlaqələndiriləcək və bu yoldan İsa bulağına da yeni yol çəkiləcək. Həmçinin, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən fevralın 14-də təməli qoyulan Horadiz-Ağbənd dəmir yolunu qeyd etmək olar. Xəttinin ümumi uzunluğu 100 kilometr olan bu dəmir yolunun strateji əhəmiyyəti olduqca böyükdür. Çünki bu nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının azad olunmuş torpaqlara ge-

baycan Avtomobil Yolları Dövlət Agentliyi Qarabağ və Şərqi Zəngəzurda çəkilən avtomobil yollarının xəritəsini açıqlayıb. Xəritə ümumi uzunluğu 665,4 km olan və hazırda tikilən 10 əsas avtomobil yolunu əhatə edir. Bundan əlavə, xəritəyə tikintisi nəzərdə tutulan, lakin uzunluğu qeyd olunmayan avtomobil yolları da daxildir. Məlumata görə, hazırda 101 kilometrlik "Zəfər yolu"nun tikintisi ilə yanaşı 81,6 Əhmədbəyli-Füzuli-Şuşa, 80,7 kilometrlik Toğanalı-Kəlbəcər-İstisu, 72,3 kilometrlik Kəlbəcər-Laçın, 123,8 kilometrlik Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd yollarının tikintisi davam etdirilir.

Həmçinin, 22 kilometrlik Talış-Tapqaraqoyunlu-Qaşaltı, 83 kilometrlik Xudafərin-Qubadlı-Laçın, 43 kilometrlik Şükürbəyli-Cəbrayıl-Hadrut, 13 kilometrlik Füzuli-Hadrut və 45 kilometrlik Bərdə-Ağdam avtomobil yolları tikilməkdədir.

Ardı Səh. 4

# Bütün yollar QARABAĞA aparır!




Əvvəli-Səh-3

### ŞƏHİDLƏRİMİZİN QANI İLƏ YAZDIĞI "ZƏFƏR YOLU"

Vətən savaşının başa çatmasından dərhal sonra təməli qoyulan ilk layihə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuzun Şuşa şəhərini mənfur düşməndən azad edərkən istifadə etdiyi cığır-yolun əbədiləşdirilməsi məqsədilə "Zəfər yolu" adlandırılan avtomobil yolunun inşası oldu. Yolun təməli Prezident İlham Əliyevin ötən il noyabrın 16-da Füzuli rayonuna səfəri zamanı qoyulub. Həmin gün bu münasibətlə xalqımızı təbrik edən Prezident İlham Əliyev demişdi: "Bu gün bu gözəl təməlqoyma mərasimi böyük rəmzi məna daşıyır. Biz işğaldan azad edilmiş Füzuli şəhərindən və ona qədər olan kəndlərdən Füzuli şəhərinə qədər və Füzuli şəhərindən Şuşa şəhərinə yeni yol çəkirik. Bu yol heç vaxt olmayıb. Azərbaycan vətəndaşları yəqin bilirlər ki, Şuşaya sovet vaxtında yol Ağdam ərazisindən gedirdi - Ağdam-Xankəndi-Şuşa yolu. İndi bu yoldan istifadə etmək hələ ki, mümkün deyil. Bu gözəl hadisə münasibətilə bütün Azərbaycan xalqını bir daha ürəkdən təbrik edirəm. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

"Zəfər yolu" Qarabağın inkişaf planı nəzərə alınmaqla, 2-ci texniki dərəcəyə uyğun inşa edilib. Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolunun Füzuli rayonunun Əhmədbəyli kəndindən keçən hissəsindən götürən bu yol Qarabağımızın tacı olan Şuşa şəhərinə qədər uzanır. Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisindən keçməklə inşa edilən yol Füzuli və Şuşa şəhərləri də daxil olmaqla, sözügedən rayonların 20-dən artıq yaşayış məntəqəsini əhatə edir. "Zəfər yolu" şəhidlərimizin qanı ilə yazdığı şanlı tarixin şahididir. Və dövlət başçısı da bu yol boyunca torpaqların hər qarışına şəhidlərimizin və qazilərimizin qanı qarışdığı üçün "Zəfər yolu" adlandırmışdır və bu yol Azərbaycanın müasir tarixində ordumuzu şanlı qələbəyə aparan müqəddəs yol kimi qalacaq.



Şuşaya doğru uzanan bu yolda yeni Füzuli-Şuşa yolunun çəkilişində də işlərin sürətlə davam etməsinin şahidi olduq. Bu yol çətin relyefə malik olan ərazilərdə, dolamalarda inşa edilir. Körpü və tunellər hesabına bu yolla Füzulidən Şuşaya qədər olan məsafə 84.6 km təşkil edəcək. Yeni Füzuli-Şuşa avtomobil yolu 4 və 6 hərəkət zolaqlı olmaqla iri yaşayış məntəqələrindən, həmçinin məşhur Topxana meşəliyindən yan keçməklə inşa edilir, "Zəfər yolu" ilə kəsişmədə isə tunellər inşa olunub. Yolun ilk 48 km-i 6, 48-84.6 km-i isə 4 hərəkət zolağından ibarət olacaq. Müvafiq olaraq yol yatağının eni 29.5 və 21.5 metr təşkil edəcək. Yolda inşa ediləcək tunellərin ümumi uzunluğu təqribən 3 km olacaq. Bundan başqa, müxtəlif səviyyəli yol qovşaqlarının inşası da nəzərdə tutulur.

Bu yolun layihəsinə Şuşanın məşhur İsa bulağınadək əlavə 2 km-lik II texniki dərəcəli yolun inşa edilməsi də daxil edilib. 2 hərəkət zolaqlı olacaq İsa bulağı yolu başlanğıcını yeni Füzuli-Şuşa avtomobil yolunun təqribən 82-ci km-dən götürəcək və Laçın-Şuşa-Xankəndi avtomobil yolunu uzunluğu 900 metr olan tunel vasitəsilə keçməklə inşa ediləcək.

### QƏLƏBƏMİZİ VƏ İLHAM ƏLİYEVİN QURUCULUQ ƏZMİNİ SİMVOLİZƏ EDƏN YOLLAR

Ümumiyyətlə, bu gün Qarabağ və Şərqi Zəngəzurda inşa olunan yolların hər biri Vətən müharibəsindəki qələbəmizi, İlham Əliyevin quruculuq əzmini simvolizə edir. Məsələn, sərt relyefli Murovdağ silsiləsindən keçməklə inşa olunan Toğanalı-Kəlbəcər-İstisu yolu həm də dövlətimizin gücünün ifadəsidir. Bu avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla 2-4 hərəkət zolaqlı 1-ci və 2-ci texniki dərəcəyə uyğun olaraq inşa edilir. Belə ki, layihənin keçdiyi ərazinin sərt dağlıq və qayalıq relyefinin olmasını nəzərə alaraq, yolun əsas hissəsinin II texniki dərəcəyə uyğun, yəni hərəkət hissəsinin 2 zolaqdan, yoxuşlarda isə əlavə zolaq verilməklə tikintisi nəzərdə tutulub. Tunel və körpü olan hissələrdə isə 1-ci texniki dərəcəyə uyğun 4 hərəkət zolağının inşası planlaşdırılır.

Bu yolun 16-cı km-lik hissəsindən Murovdağ silsiləsi başlanır və yüksəklik 1900 m-dən 3250 m-ə qədər artır. Burada mövcud yoldan istifadə ediləcəyi təqdirdə həddindən artıq sürüşmə zonalarına rast gəlinir. Bu ərazilərdə inşa ediləcək dolaylara əlavə özül əsaslı istinad divarları tikilsə belə, qış fəslində güclü qar və şaxtalı hava şəraitində yolun təhlükəsiz istismarı mümkün olmaya bilər. Bölgədə sərt qayaların olması səbəbindən yolun tikildiyi ərazidə tikinti texnikalarının hərəkət qabiliyyəti də məhdudlaşır. Mövcud yoldan istifadə edərkən Murovdağ zirvəsindən enişdə də eyni çətinliklər yaranır. Yolda maillik 16-28 faiz arası dəyişir. Əgər yol 7 faiz mailliklə tikilsə, mövcud 16.5 km-lik yolun uzunluğunun dolaylarla daha 15 km uzadılması tələb olunur. Bu üzdən çətin relyefə malik ərazidə 31.5 km-lik yolun tikilməsi əvəzinə bu hissənin Murovdağ silsiləsinin altından 11.7 km-lik tunel ilə keçilməsi daha məqsədəuyğun hesab edilib. Tunel bir istiqamət üzrə 2 hərəkət zolaqlı və 12 metr enində olacaq. Türkiyənin "Kolin İnşaat Turizm Sənaye və Ticarət" və "Cengiz İnşaat Sənaye və Ticarət" şirkətlərinin də cəlb olunduğu 80,7 km-lik Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunun çəkilməsi, dağ ərazilərdə tunellərin inşası göstərir ki, Azərbaycan dövləti işğaldan azad olunmuş ərazilərinin bərpası üçün ən mürəkkəb layihələri belə həyata keçirməyə qadirdir.

İndi işğaldan azad edilmiş ərazilərdə hətta sovet dövründə olmayan istiqamətlərdə yeni yollar salınır. Başda "Zəfər yolu" olmaqla bütün yol layihələrinin hamısı sürətlə icra olunur. Zamanla onların sırasına yeniləri əlavə olunacaq, Qarabağ və Şərqi Zəngəzurda respublika əhəmiyyətli yollarla yanaşı, yerli əhəmiyyətli yollar da yenidən qurulacaq. Hazırda işğaldan azad olunan ərazilərdə həyata keçirilən işlərin sürəti və "Zəfər yolu"nda gördüklərimiz bunu təsdiq edir.

Bərpa- quruculuq işlərinin həyata keçirilməsi üçün 2021-ci ilin dövlət büdcəsində 2,2 milyard manat vəsait də ayrılmışdır. Bununla yanaşı, işğaldan azad edilmiş ərazilərdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə Qarabağ Dirçəliş Fondu da təsis olunmuşdur.

Fondun yaradılmasında əsas məqsəd işğaldan azad olunmuş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsidir. 30 il ərzində erməni vandalları yaşayış və ictimai binaları, bütün infrastrukturu, maddi və mədəni abidələri dağıtmış, yeraltı sərvətlərimizi vəhşicəsinə talan etmişlər. Ona görə də, işğaldan azad olunmuş ərazilərdə normal həyatın qaytarılması və iqtisadi inkişafın bərpa olunması böyük maliyyə vəsaiti tələb edir.

Əlbəttə, dövlət büdcəsindən vəsait ayrılmışdır, bununla belə, büdcədənkənar vəsaitlərin bu prosesə cəlb olunması böyük əhəmiyyət daşıyır və beynəlxalq maliyyə institutlarının, yerli və xarici investorların və kommersiya banklarının bərpa işlərinə cəlb olunması vacibdir. Bu mənada Qarabağ Dirçəliş Fondunun təsis olunması böyük əhəmiyyət daşıyır. Fondun vəsaitlərinin fiziki və hüquqi şəxslərin ianələri, qrantlar və qanunla qadağan olunmayan digər mənbələr hesabına formalaşması işğaldan azad edilmiş rayon, şəhər, qəsəbə və kəndlərdə bərpa-quruculuq işlərinin geniş vüsət alması üçün geniş imkanlar açacaq.

### BÜTÜN YOLLAR QARABAĞA APARIR

Hamımız, "Mən azərbaycanlıyam!" deyənlərin hamısı bu yolun yolçusu olacaq - Bu yol Böyük Qələbənin Qarabağa apardığı yoldur. Bu yol müqəddəsliyə, haqqın, ədalətin bərpa olunduğu "Qarabağ Azərbaycandır!"a gedən, şəhidlərimizin qanı ilə yoğrulan "Zəfər yolu", Qarabağa aparan inam yoludur. Bu inam Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır" kəlamının qürurunun qüdrətidir...

Və bir millətin böyüklüyünün hüdudlara sığmayan Vətən sevgisindən yarananvə elə bu hüdudsuz sevgi ilə bütün cığırları Qarabağa gedən yola birləşən, öndə "Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" deyən Ali Baş Komandanın "Dəmir yumruq" siyasəti ilə Müzəffər Ordumuzun igid əsgər və zabitlərinin rəşadəti ilə bütün yolların kəsişdiyi "Qarabağ Azərbaycandır!"a aparan yoludur!

Bu gün hər bir Azərbaycan vətəndaşı çox qürurludur. Çünki Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Qarabağda böyük sürətlə bərpa və yenidənqurma işləri aparılır, ən yüksək standartlar səviyyəsində regionun gələcəyi qurulur. Böyük Qayıdışın tezliklə reallığa çevriləcək. İşğaldan azad edilmiş ərazilərdə inşa edilən - BÜTÜN YOLLAR QARABAĞA aparır - öz dədə-baba yurdlarına, "QARABAĞ AZƏRBAYCANDIR!"a aparan yolla bu torpaqlarda əbədi yaşayacaqlar.

***RƏFİQƏ KAMALQIZI***

# Narkomaniyaya qarşı təbliğat və maarifləndirmə işləri ilə bağlı təlim keçirilib




***Gənclər arasında narkomaniyaya qarşı mübarizə ilə bağlı təbliğat işinin daha da gücləndirilməsi, maarifləndirmə tədbirlərinin sistemli və əlaqəli şəkildə həyata keçirilməsi məqsədilə Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı, "Azərbaycan Televiziyası və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən işçi qrupu arasında 2022-ci ilə dair birgə Tədbirlər Planı imzalanıb. Tədbirlər Planına uyğun olaraq iyunun 7-də YAP Mərkəzi Aparatında təlim keçirilib.***





Tədbiri giriş sözü ilə açan YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsi müdirinin müavini Zəkiyyə Musayeva bildirib ki, narkomaniya ilə mübarizə və onun profilaktikası mühüm məsələ olmaqla yanaşı, gənclərin formalaşması, onların sağlam böyüməsində ən vacib amillərdən biridir. Tədbirlər Planı çərçivəsində narkomanlıqla mübarizə sahəsində maarifləndirmə işinin aparılması məqsədilə təlimçilərin hazırlanması, bu istiqamətdə dəyirmi masaların, fləşmobların, idman yarışlarının, mədəni-kütləvi tədbirlərin keçirilməsi nəzərdə tutulur. Onun sözlərinə görə, məqsəd cəmiyyətimizdə zərərli vərdişlərin qarşısını almaqdan ibarətdir.

Çıxış edən YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov deyib ki, hazırda narkomaniya ilə mübarizə bütün dünyada qlobal çağırışlardan biridir. Onun sözlərinə görə, belə bir şəraitdə maarifləndirmə işlərinə böyük ehtiyac var. YAP-ın sıralarında onminlərlə gəncin birləşdiyini deyən B.İslamov qeyd edib ki, maarifləndirmə işlərində bu potensialdan geniş istifadə olunmalıdır. "Partiyamızda yüksək intellektli gənclər birləşib. Onlar narkomaniyaya qarşı mübarizədə fəal olmalıdır. Çünki bu, vətəndaş olaraq bizim məsuliyyətimizdir. Bu sahədə düzgün maarifləndirmə işlərinin aparılması vacibdir. Sağlam gənc nəslin formalaşması üçün bu işlər davamlı olaraq həyata keçirilməlidir. İnanıram ki, bu Tədbirlər Planı çərçivəsində görüləcək işlər öz müsbət nəticələrini verəcək", - deyə YAP Gənclər Birliyinin sədri vurğulayıb.

"Azərbaycan Televiziyası və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin Beynəlxalq əlaqələr departamentinin rəis müavini Elnur Orucov çıxışında bildirib ki, cəmiyyətdə "ağ ölüm" kimi tanınan narkomaniya bəlası insan həyatında sağalmaz fəsadlar yaradır. Onun sözlərinə görə, narkomaniya bəşəriyyətin ən qorxulu və təhlükəli bəlalarından biridir. "Bizim üzərimizə düşən ən vacib vəzifələrdən biri bu bəlaya qurşanan gənclərimizi, vətəndaşlarımızı normal həyata qaytarmaqdır. Bu yöndə maarifləndirmə işləri bundan sonra da dolğun şəkildə aparılmalıdır. Cəmiyyətin müxtəlif təbəqələrinin, o cümlədən KİV-lərin, QHT-lərin bu prosesdə iştirakı çox vacibdir. Azərbaycan Televiziyası da bu mövzuya həsr olunan silsilə maarifləndirici verilişlər yayımlayır, müxtəlif sosial videoçarxlar nümayiş etdirir. Artıq çəkilişinə start verilən "Həyat gözəldir" çoxseriyalı bədii televiziya filminin ana xəttini narkomaniyaya qarşı mübarizə tədbirləri, "ağ ölüm"ə qarşı mühüm çağırışlar təşkil edir", - deyə, E.Orucov söyləyib.

Sonra Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən işçi qrupunun Milli İnformasiya sektorunun müdiri Raqif Allahverdiyev iştirakçılara təlim keçib, slaydlar vasitəsilə məlumatlar təqdim edib. O qeyd edib ki, dövlət tərəfindən bu sahədə zəruri tədbirlər həyata keçirilir. "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın otuz səkkiz bəndi məhz maarifləndirmə məsələlərinə həsr olunub. "Narkomaniya insanın həyatını məhv edir. Narkotik maddələrdən asılılıq insanın ailəyə, cəmiyyətə bağlılığını azaldır və nəticədə onu cəmiyyət üçün faydasız fərdə çevirir. Cəmiyyətlə şəxsiyyət arasındakı əlaqənin pozulması təkcə onun özünə deyil, həm də ətrafına mənfi təsir göstərir. Belə gənclər öz yaxınlarını da narkotik maddələrin istifadəçisinə çevirirlər. Buna görə də gənclər narkomaniyanın nə qədər zərərli, təhlükəli olduğunu bilməlidirlər", - deyə R.Allahverdiyev vurğulayıb. Daha sonra təlim iştirakçılarının çoxsaylı sualları cavablandırılıb. Sonda iştirakçılara sertifikatlar təqdim olunub.

# "Ümummilli Lider ölkəni qoruyub-saxlamaq üçün əlindən gələni edib"



"1993-cü ilin yayı təkcə yay fəsli olduğuna görə isti deyildi. 1993-cü ilin iyun ayında Azərbaycanın ölüm və qalım məsələsi həll olunurdu. Ölkədə siyasi vətəndaş müharibəsinin ilk qığılcımları görünür. Digər tərəfdən erməni hərbi birləşmələri bu vəziyyətdən istifadə edərək Azərbaycan torpaqlarını işğal edir, azərbaycanlılara qarşı soyqırım siyasəti həyata keçirirdi". Bu sözləri SİA-ya açıqlamasında deputat Anar İsgəndərov deyib.

Onun sözlərinə görə, nə yaxşı ki, hakimiyyətdə olan qüvvələr də dərk etdilər ki, ölkəni bu ağır fəlakətdən vətəndaş müharibəsindən qurtara bilən şəxs Ümummilli Lider Heydər Əliyevdir: "Ona görə də hökumət, dövlət rəhbərliyi sadə xalqın tələbini nəzərə alaraq Ulu öndər Heydər Əliyevi Bakıya dəvət etdilər. Təbii ki, Heydər Əliyevin Bakıya gəlişi sadə məsələ deyildi. Heydər Əliyev özü də başa düşürdü ki, Naxçıvanda olan çətinlikləri arxada qoydu, xalqı öz ətrafına toplaya bildi, Naxçıvanın blokada günlərində erməni hərbi birləşmələrinə qarşı Naxçıvanı qoruyub saxlaya bildi. Dahi şəxsiyyət Heydər Əliyevin Bakıya gəlişi ilə bu çətin günlər arxada qaldı. Sürət Hüseynovun qiyamçı dəstələri biraz daha sakitləşdi. Azərbaycanda siyasi hakimiyyətdə olan qüvvələr istefaya getdilər. Heydər Əliyev ölkəni qoruyub-saxlamaq üçün əlindən gələni edib".

Deputat fikirlərinə davam edərək həmçinin qeyd edib ki, 1993-cü ilin 9 iyun tarixində Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəldi: "Daha sonra isə O, Gəncəyə gedərək oradakı vəziyyəti öyrəndi. Yenidən Bakıya qayıdaraq ölkədəki ağır vəziyyəti aradan qaldırmaq üçün əvvəlcə Ali Sovetin sədri seçildi. Daha sonra isə Əbülfəz Elçibəy heç kimə demədən hakimiyyəti tərk edib. Naxçıvana getdikdən sonra Ulu öndər Heydər Əliyev prezident səlahiyyətini öz üzərinə götürdü. Beləliklə addım-addım ölkədə olan çətinlikləri aradan qaldırdı, qonşu dövlətlərlə münasibətləri səmimiləşdirdi. Bir sözlə, balanslaşdırılmış siyasəti uğurla həyata keçirdi və 1993-cü ilin oktyabr ayında ölkənin prezidenti seçildi.

15 iyun Azərbaycan tarixində Qurtuluş Günüdür. Azərbaycanla bağlı xarici dövlətlərin planlarının alt-üst olan günüdür".

***Arzu Qurbanlı***

# "Sülh sazişinin imzalanması region üçün əhəmiyyətlidir"



"Rusiyanın xarici işlər naziri Sergey Lavrovla görüş zamanı "3+3" əməkdaşlıq platformasını, eyni zamanda, Türkiyə-Ermənistan və Azərbaycan-Ermənistan münasibətlərinin normallaşma prosesini müzakirə etdik". SİA xəbər verir ki, bu barədə Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu rusiyalı həmkarı ilə birgə mətbuat konfransında bildirib.

XİN rəhbəri qeyd edib ki, Azərbaycanla Ermənistan arasında əhatəli sülh sazişinin imzalanması region üçün əhəmiyyətlidir.

*"...Kollektiv Təhlükəsizlik Müqaviləsinin təşkili Avro-Atlantikada tarazlığı təmin edən amil olmalıdır". SİA-nın rus saytlarından əldə etdiyi məlumata görə, bunu Sergey Lavrov Rusiya Xarici İşlər Nazirliyinin saytında dərc olunan müsahibəsində deyib. Bununla yanaşı o, təşkilatın dünyada nüfuzunun artacağına, səsinin getdikcə daha da artacağına əminliyini ifadə edib. Əla...əntiqə arzu-niyyət-istək...daha nə bilim nə...*

# KTMT Ermənistansız son günlərini yaşayacaq...

## ...Lavrov da Moskvada oturub NATO ilə "tarazlıq formulu" qurur,.. amma unudur ki, Ermənistansız bu tarazlıq qurula bilməyəcək



Amma, sual olunur, Lavrov NATO ilə bu tarazlığa kiminlə nail olacaq, Ermənistanla, yoxsa Tacikistanla? Hələ mən təşkilata üzv olan o biri dövlətləri demirəm. Doğrudur, burada bəzi istisnaları, təbii ki, nəzərə almaq lazımdır. Amma, deyək ki, elə Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi təşkilatına olan "münasibəti" çoxları kimi, Lavrova da bəlli olmalıdır.

Belə ki, ermənilər elə indiyə qədər KTMT-ni "onların haqq işinə", yəni 44 günlük müharibədə gəlib onlar tərəfdə vuruşmadığına görə hələ də söyürlər. Təsadüfi deyil ki, erməni saytlarında KTMT ilə bağlı yer alan sonuncu yazılardan biri də elə bu təşkilata olan nifrət üzərində yazılıb.

"Ümidimiz özümüzə və NATO-yadır" başlıqlı yazıda, müəllif iyunun 10 və 17-də İrəvana gələcək KTMT səlahiyyətlilərini "parazitlər" kimi təqdim edir. Yazıda deyilir ki, o vaxt 44 günlük müharibədə və hətta müharibədən sonra belə KTMT-yə üzv olan heç bir ölkə Azərbaycanın bu "təcavüzünü pisləməyib". Ermənilərə görə, KTMT məsələsində onların hərbi yardıma ümid etmək hüququ olub. Amma KTMT-dəki silahdaşları onlara nə silah, nə də könüllü dəstələr göndərməyiblər.

Qeyd edək ki, ermənilərin "atalarına od vurub, onları cızzaqlarını çıxaran" bilirsiniz nədir?

Ermənilər deyirlər ki, yenə də KTMT-dəki silahdaşlarımızdan nə rəğbət, nə də insani anlayış görməməyimiz bir yana, həli bir KTMT-nin bəzi üzvləri, bizim acığımıza, Azərbaycanı "qələbə və ərazi bütövlüyünün bərpası" münasibətilə təbrik ediblər. Ermənilərə görə, əgər onlar həmən ərəfədə KTMT-nin yox, NATO-nun üzvü olsaydılar, guya hər şey başqa cür olarmış. Ermənilər "nümunə" də göstərirlər, baxın, Ukrayna NATO-nun üzvü olmaya-olmaya, lakin bu blokdan bütün lazımi yardımları alır - silahdan, təlimatçıdan tutmuş pula qədər. Hətta NATO üzvü olan ölkələrin sadə sakinləri belə Ukraynaya kömək üçün yardım toplayırlar.

...Deyim ki, burada ermənilərə sual vermədən keçmək olmur. Yaxşı, dediyiniz kimi, Ukrayna NATO-nun üzvü olmasa da, amma təşkilat bu ölkəyə yardım göndərməkdə davam edir. Siz, erməni düşüncənizlə də olsa, bu yardımdan bəs sizə niyə göndərilmədiyini heç olmasa, nə vaxtsa düşünmüsünüzmü?

Təbii ki, mən sizin aranızda bunu başa düşənlərin yoxluğuna elə də şübhə etmirəm. Çünki, siz "bilməsəniz də", bütün dünya sizin haqsız olduğunuzu gördü. İndi sizin öznüzü durub Ukrayna ilə müqayisə etməniz... çox gülüncdür.

...Bu gün siz gedən qatarın arxasınca boylanıb, Ermənistanın gələcək "nicatını" NATO ilə yaxınlaşmada görürsünüz. Amma etiraf edim ki, mən sizi NATO-da necə həsrətlə gözlədiklərindən xəbərsiz idim. Bu gün KTMT sizə "hörmət etməyib" deyə, siz də bundan sonra ona hörmət etməyəcəyinizi deyirsiniz...

Amma, deyim ki, sizin KTMT-ni tərk etməniz təşkilat üçün "böyük itki olacaq". Onu da etiraf edim ki, bu KTMT-nin güçünün yarıdan çoxunu onun "əlindən alacaq"(?).

...Daha nə deyim, belə görünür ki, KTMT artıq son günlərini yaşamaqdadır.

...Lavrov da Moskvada oturub NATO ilə "tarazlıq formulu" qurur,.. amma unudur ki, Ermənistansız bu tarazlıq qurula bilməyəcək.

***Ağasəf Babayev***

---

# Metroda kənd həyatı

***Hər birimizin özümüzün olmasa da, ata-babalarımızın kəndlərimizlə bağlılığı olduğundan, həmişə kənd həyatı bizlərə maraqlı gəlir. Məsələn, kənddə doğulanların ürəyi ildə ən azından iki-üç dəfə kənddən yana əsir. Şəhərdə doğulub, ata-anasının kəndinə bir dəfə gedən övladlarımız da hər dəfə yenidən kəndlərimizdə olmaq istəyirlər. Yəni müasir dövrümüzdə hamı şəhərlərə üz tutsa da, kənd havası, kəndin o maraqlı, əsrarəngiz həyatı gözəl xatirələr kimi beynimizdə dolaşır.***

Bu hissləri duyan iş adamları da var. O səbəbdən də baxırsan ki, istirahət, alış-veriş mərkəzlərində, ayrı-ayrı məkanlarda kənd həyatını tərənnüm edən guşələr yaradırlar ki, insanların diqqətini cəlb etsinlər, kəndlə bağlı onların beyinlərində dolaşan hissləri oxşasınlar.

Ötən bazar günü metronun "Şah İsmayıl Xətai" stansiyasında yolçu idim. Sakitlikdi, vaqonda cəmi 20-25 nəfər olardı. Hamı da həmişəki kimi telefon əlində başıaşağı idi. Birdən bu sakitliyi qoyun mələməsi, inək böyürməsi səsləri pozdu. Düzü mən başımı heç qaldırmadım. Düşündüm ki, yəqin metroya da kənd həyatı ilə bağlı səslər yerləşdirilib ki, insanlara yayın bu isti günlərində kəndlə bağlı anları yaşatsınlar. Həqiqətən çox təqdir etdim. Hələ "nə gözəl yenilikdir" də dedim.

Axı indi hər kəs kəndlərə gedə bilmir. Bunun işləyəni var, uşağına gündəlik çörək pulu qazananı var. Axı işi atıb gedib otursan kənddə, gələndə görəcəksən ki, səni çıxarıb atıblar bayıra. Qalır bir məzuniyyəti yaya saxlamaq. O da ki, bəzən insanın özündən asılı olmur da. Atalar demişkən, sən saydığını say, gör fələk nə sayır. Bir də görürsən ki, elə bir iş çıxdı ki, məzuniyyət tamamilə ona sərf olundu. Yox, xəstəlik, filan demirəm. Vallah insanlarda indi olan sağlamlıq heç bir dövrdə olmayıb. Çünki bazar, marketlərimiz tərəvəzlə, ərzaqla dolub-daşır. Hamısı da min bir keyfiyyətdə. Vaxtilə deyirdik gedək kəndə, qatıqdan, şordan, pendirdən yeyək. İndi buna heç




ehtiyac belə yoxdur. Lakin indi istehsal müəssisələri var ki, ağlınagəlməyəcək dərəcədə keyfiyyətli süd məhsulları istehsal edirlər. Qaldı digər meyvə-tərəvəzlərə, genetik modifikasiya olunmuş meyvə-tərəvəzlər var ki, kənddə ağacın üstündəki meyvə onun yanında heç nədir. Yumurta üçün də kəndə buradan oraya əziyyət çəkməyinə dəyməz. Çünki kənd yumurtası indi kəndlərdən çox şəhərlərdədir. Allah versin ağı sarı edən rənglərə.

Yenə mövzudan uzaqlaşdım. Deyəcəksiniz ki, axı sən metroda idin, necə oldu ki, gedib çıxdın kəndə. Bu səbəbdən də qayıdım mövzuya. Hə də, kənddə sübh çağı ki, mal-heyvanı buraxırlar örüşə, sübhün sakitliyini mələşmə, böyürmə səsləri necə pozursa, axşamçağı eynilə, mal-heyvan örüşdən qayıdanda kəndi neçə qoyun mələrtisi, inək böyürtüsü səsləri ağzına alırsa, metroda da eynilə, eşitdik o səsləri, yaşadıq o hissləri.

Bu səslərin ardı-arası kəsilmədiyindən istər-istəməz başımı yuxarı qaldırdım. Dedim görüm insanlar nə reaksiya verirlər bu səslərə. Baxdım ki, üç-dörd nəfər başını qaldırıb. Səs də ki, kəsilmək bilmir. O yana-bu yana baxdım, dedim bəs səs lenti dolaşanda, həmişə növbəti stansiyaya çatmamış, elan olunur ki, qapılar örtülür, bəlkə belə bir şeydir. Bu səslər təkrar-təkrar, nə qədər, niyə bitib tükənmir? Baxam ki, nə? Vaqonun aşağı küncündə 7-8 yeniyetməgənc oğlanlardı, veriblər səs-səsə: biri böyürür, o biri onun davamını mələməklə gətirir. Belə...

İstədim kədərlənəm, ona görə ki, bax ey, mən də səhərdən bəri deyirəm, metroda insanlara kənd həyatını yaşatmaq üçün səs lenti yazdırıblar. Amma bir anda fikrimdən vaz keçdim. Düşündüm ki, bunun canlısı lap gözəl də... Maşallah gənclərimiz var ki, inkişafın yeddinci qatındadırlar. Buna sevinməyib, nə edəsən ki?..

Elə bu anlardaca mənzilbaşına yetişdik. Nədənsə, metrodakı yolçulardan bir neçəsi başlarını yaman bulayırdılar. Bunu da təbii hesab etdim. Çünki yəqin onların uşaqlarında bu məharət yoxdur, paxıllıqdan bilmirlər nə etsinlər...

Nəhayət, vaqondan endim, platformada Şah İsmayıl Xətainin divardakı rəsmi ilə üz-üzə gələndə anladım, anladım ki, insanlar niyə başlarını bulayırmışlar...

***Mətanət MƏMMƏDOVA***

---

# "Əlaqələrin genişlənməsi hər iki ölkəyə müsbət təsir edəcək"



"Pakistan Azərbaycanın vacib tərəfdaşlarından biridir". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı-ekspert Vüqar Bayramov bildirib. Onun sözlərinə görə, Azərbaycan və Pakistan arasında münasibətlərin genişləndirilməsi və bu istiqamətdə daha geniş əlaqələrin qurulması üçün birbaşa reyislərə ehtiyac var idi: "Bu kontekstdən Bakı ilə İslamabad arasındakı birbaşa reyisin istifadəyə verilməsi həm də 2 ölkə arasındakı ticarət dövriyyəsinin genişlənməsinə gətirib çıxaracaq. Bu da imkan verəcək ki, ticarət dövriyyəsində artımlar müşahidə olunsun. Həmçinin qarşılıqlı investisiya qoyuluşlarına xüsusi təkan verəcək. Nəzərə alsaq ki, Azərbaycan Pakistanı işğaldan azad olunmuş ərazilərimizə sərmayə qoyuluşuna dəvət edib. Bu da təbii ki, Azərbaycan və bütövlükdə Pakistan üçün qarşılıqlı sərmayə qoyuluşundan vacibdir. Buna görə də birbaşa hava nəqliyyatının açılması ölkələr arasında sərhəd dövriyyəsinin genişlənməsinə və qarşılıqlı sərmayə qoyuluşlarının artmasına xidmət edəcək".

***Banuçiçək Hüseynli***

İqtisadçı açıqladı

# Ağbulaq-Naxçıvanın dörd fəsil turizm ilki

*İlham Əliyev: "Turizm sahəsi həm regionların inkişafı, həm də ki ölkənin iqtisadi potensialının möhkəmləndirilməsi üçün, Azərbaycanın imici, dünyaya inteqrasiyası üçün çox mühüm vasitədir"*

***Qədimliyi və təbii gözəllikləri ilə hər zaman qürur duyduğumuz Naxçıvan bir-birindən səfalı, bənzərsiz, hər fəslinin öz füsnu ilə bu yerlərə gələnlərdə, bu gözəllikləri görənlərdə unudulmaz təəssüratlar yaradır. İnsanın təsəvvürünə belə, gətirmədiyi təbii, zəngin gözəlliklərlə əhatə olunan, onu yalnız görəndən sonra, doğrudan da, İlahinin bir möcüzəsi olduğunu təsdiqlədiyimiz bölgələrimizdən biri də Ağbulaqdır. Enişində saf, şaqraq ağ bulaqları ilə yuxarılara doğru qalxdıqca ağ buludları birləşən, dağları kəndə arxa, torpağı insanlarına dayaq olan bu qədim yurd yeri, həqiqətən, bir İlahi bəxşişidir. Şəfalı buz suları, təmiz havası, bol nemətli dağı-daşı, min bir dərdə dərman gül-çiçəkli düzləri ilə Ağbulaq bir təbiət ensiklopediyasıdır, desək, yanılmarıq...***

## Pioner düşərgəsindən xatirələr...

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov demişdir: ”Ağbulaq kəndi Sovetlər Birliyi dövründə də havasına və təbiətinə görə mütəxəssislərin diqqətini cəlb etmiş, burada məktəblilərin yay düşərgələri təşkil olunmuşdu. Muxtar respublikanın müxtəlif məktəblərindən olan şagirdlər yay tətilini burada keçirib, kəndin təbiəti ilə tanış olurdular”. Bu fikirləri xatırlayarkən biranlıq xəyalən 1980-90-cı illərin Ağbulağına - pioner düşərgəsinə qayıtdım. Qardaşımla yay tətilini bir neçə dəfə həmin pioner düşərgəsində keçirmişdik. Yadımdadır, Naxçıvan şəhərindən, digər rayonlardan da olan məktəbliləri gətirən avtobus rayon mərkəzindən keçəndə biz də onlara qoşulub Ağbulağa yollanırdıq. Kəndə çatanda bütün müəllim və məktəblilər yorulub əldən düşmüş olurdu. Çünki yollar çox bərbad idi. Naxçıvandan Ağbulağa qədər bəlkə də, saatyarımlıq yol idi. Kəndin dolanbac yollarını avtobus ”iməkləyə-iməkləyə” qalxırdı. Düşərgənin əsas binası kənd məktəbində yerləşirdi. Məktəb də ki, nə məktəb. Köhnə, təmirsiz... O zamanlar ayaqlı dəmir çarpayılar var idi. Bir də görürdük ki, çarpayının bir tərəfi qalxıb, digər tərəfi enib. Baxırdıq ki, çarpayının ayağı döşəmədəki çürük hissədən içəri keçib. Yeməkxana məktəbin balaca bufetinin kiçik zalında yerləşirdi. O zamanlar su, kanalizasiya şəraiti olmadığına görə burada mətbəx tamamilə primitiv şəkildə qurulmuşdu.

Kəndə gəzintiyə çıxırdıq. Günortaya tozun-torpağın içərisində düşərgəmizə qayıdırdıq. Dəfələrlə daşlı-çınqıllı yollarda elə yıxılırdıq ki, həkim və tibb bacısı dizlərimizdən daşları qan axa-axa təmizləyirdilər. Uşaq idik, əyləncə axtarırdıq, qaçırdıq, atılıb-düşürdük, oynayırdıq, kim idi şəraitsizliyi fikirləşən. Lakin bu günün prizmasından baxanda çox mətləblərin fərqində olur insan... Evə qayıdanda məhəllədə uşaqlarla birlikdə xatirələrimizi bölüşürdük. Məhəllədən Ukraynanın o zamanlar üçün çox məşhur olan ”Artek” pioner düşərgəsinə gedən uşaqlar olurdu. Onlar xatirələrindən, gəzib-gördükləri yerlərdən söhbət açanda biz danışmağa utanırdıq. Bu dəfə kiçik olsaq da, fərqi çox yaxşı analiz edə bilirdik, çünki gördüklərimizlə yoldaşlarımızın nağıl etdikləri arasındakı fərq müqayisə edilməyəcək dərəcədə idi. Biz də çox arzulayırdıq ”Artek”ə getməyi. Lakin qismət... Hər yay arzularımız xəyal olub gercəkdən çox uzaqlarda bizimlə başbaşa qalanda yenə də Ağbulağa üz tutur, olanımıza qane olmağa çalışırdıq.

## ”Artek”dən Ağbulağa... xəyaldan gerçəyə...

8 il əvvəl işimlə bağlı Ağbulağa tez-tez getməli olurdum. Bu o zaman idi ki, blokada Naxçıvanının hər bir ucqar kəndi kimi, Ağbulaq da öz miskin donunu təzələyirdi. Burada Sovetlər Birliyindən qalma köhnə, yararsız məktəb binası yenisi ilə əvəz olunurdu. O məktəb ki bizim düşərgə vaxtından 20-30 il də keçirdi və bu bina daha da yararsız vəziyyətə düşmüşdü. Kənd və xidmət mərkəzləri tikilirdi ki, bu, insanlar tərəfindən möcüzə kimi qarşılanırdı. Çünki o vaxt kənd mərkəzləri yeni bir infrastruktur kimi Naxçıvanda qurulurdu. Burada xidmət təşkilatlarının birgə fəaliyyət göstərəcəkləri insanlara nağıl kimi maraqlı gəlirdi. Onlar illərlə kəndin bərbad yolları ilə rayon mərkəzinə - həkimə, evlərinə ərzaq almağa, hansısa bir sənəd ardınca gedərkən bir gün bütün bunların da dünəninin miskinliyi heç Ağbulağa yaraşan deyildi. Təbii gözəlliklərlə insan əllərinin yaratdıqları harmoniya təşkil etmirsə, təbiət öz gözəlliyini göstərməkdə aciz qalır. Mən bu fikrə kəndlərimizin dünəni ilə bu gününü müqayisə edərək gəlmişəm. Elə bütün izi qalmasa da, hər dəfə o tərəfə baxdıqda elə bil o məktəbi, o həyəti görürdüm. Gördükcə də müqayisə edir, yenə də məhəllə uşaqlarının ”Artek” təəssüratlarını xatırlayırdım. Buradakı gördüklərim məhəllə uşaqlarının ” Artek”də görüb sadaladıqlarından qat-qat artıq idi. Biz ”Artek”ə gedən, orada istirahət edən gənclərdən olmasaq da, Ağbulaq İstirahət Mərkəzi ilə ”Artek”i bizə bəxş etmişdi dövlətimiz. Məni ən çox qürurlandıran isə o uşaqlıqla bu uşaqlığın, o gəncliklə bu gəncliyin müqayisəsi fonunda övladlarımızın bizim məhrum olduqlarımızı evlərinin içində əldə etmələri olmuşdu. Buna nə qədər qürurlanmışdımsa, bu istirahət mərkəzini yaradanlara o qədər minnətdarlıq hissi duymuşdum.



yerləşən kəndlərinə - düz evlərinə qədər gələcəyini xəyal belə, etmirdilər. O bərbad yollar kəndin coğrafi mövqeyi çətin olduğu üçün qarış-qarış yeniləşdirilirdi. Nədənsə, bu kəndə hər dəfə getdiyimdə həmin o pioner düşərgəmiz gözlərim önündə canlanır, məhəllə uşaqlarının ”Artek” təəssüratları qulaqlarımda təzələnirdi. Bu kənd, sanki mənim və o zaman həmin sözləri dinləyən uşaqların xəyal yerimiz idi. Lakin mənim o uşaqlardan bir fərqim bu idi ki, burada aparılan quruculuq işlərini, muxtar respublika rəhbərinin dəfələrlə kəndə gəlməsini, burada qurulanların planı, tikilişi ilə maraqlanmasını, inşaatçılara yeni fikirlər, göstərişlər verməsini anbaan izləmək qismətimdə vardı. Beləliklə, kənd gözlərim önündə yeniləşdikcə illər öncənin Ağbulağı xatirələrə çevrilir, Naxçıvanın dünəni ilə bu günü fonunda bir bölgənin müqayisəsini yaradırdı. Bu həm də o zaman idi ki, illərlə əl dəyməyən təbii resursumuza doğru artıq addım atılmışdı. Burada istirahət mərkəzinin tikintisi mənim xəyalımda da, gözlərimdə də ”Artek”i Ağbulağa gətirirdi. Uşaqlıq düşüncələrimizə möcüzələr diyarı kimi köklənmiş ”Artek”i...

## Ağbulaq dünən və bu gün

Ağbulaq Şahbuzun xüsusi gözəlliyə malik bölgəsidir. Dağların köksünə bərqərar olan bu ərazi ətrafdakı kəndləri öz ovucuna almaq qüdrətindən yaradılıb. Ağbulaqdan Aşağı Qışlaq kəndinə baxarkən bu kənd, sanki Ağbulağın ”ovucunun” içində dururmuş kimi təsir bağışlayır adama. Kolanıdan Ağbulağa baxanda isə özünü dağların zirvəsinə sığdıran bir məkanı seyr edirsən. Təbiətin misilsiz gözəlliklərindən yetərincə pay alan Ağbulaq saymaqla bitməyən əsrarəngizliyə malikdir. Biçənək aşırımını keçib kəndə üz tutarkən maşın dolanbac yollarla, sanki yerin yeddi qatından zirvələrə doğru yolçuluğa çıxır. Adama elə gəlir ki, torpaqla səmanın ”əllərinin” bir-birinə dəydiyi anda kəndə çatmış olursan. Bax belə bir gözəlliklər məkanıdır Ağbulaq. Bu gözəlliyin fonun-

leks quruculuq işlərindən sonra obyektlərin açılış mərasimində iştirak edənlərdən biri kimi böyük qürur hissi keçirirdim. Yəni bu kənd o kənd idimi? Bu yollar o yollar idimi? O məktəb, o mağaza dünənkilərlə müqayisə edilə bilərdimi? Hələ, üstəlik, buradakı istirahət mərkəzi xəyal ediləcək bir obyekt idimi? İnsanlar da həmin insanlar deyildilər. Onların üzləri gülürdü. Miskin kəndlərinin simasındakı yeniliklərdən yaranan sevinc hissi sakinlərin üzlərində günəş şəfəqləri kimi bərq vururdu. Çünki onlar çox yaxşı anlayırdılar ki, pis günlər arxada qaldı. Yağış yağarkən övladları sinifdə oturduqları yerdəcə islanmayacaqlar, ərzaq dalınca kilometrlərlə məsafə qət etməyəcəklər, müayinə olunmaq üçün yolxərci verməyəcəklər, hansısa bir arayış üçün rayon mərkəzinə enməyəcəklər. Üstəlik, kəndin zəhmət adamları onu da yaxşı bilirdilər ki, yeni istirahət mərkəzi onların təsərrüfatlarında istehsal etdiklərini realizə etmək üçün əlverişli vasitə olacaq və onlar Naxçıvan şəhərindəki bazarlara üz tutmaqla yox, qapılarının ağzındaca gəlir əldə edə biləcəklər.

## Ağbulaq istirahət mərkəzində bir gün

Bu istirahət mərkəzi heç də qapılarını tək turistlərə, qonaqlara açmadı. Buranın ilk sakinləri Ali Məclis Sədrinin tapşırığı ilə təhsildə və fəaliyyətində fərqlənən naxçıvanlı şagirdlər, gənclər, tələbələr oldular. Bu, indi də bir ənənə olaraq davam etdirilir. Elə istirahət mərkəzində bir gün ərzində müşahidə etdiklərim qarşısında o qədər munis hisslər yaşamışdım ki... 2015-ci il idi. Ağbulaq İstirahət Mərkəzi məktəblilərə birhəftəlik yenə də qapılarını açmışdı. Övladım da onlar arasında idi. Onu görmək üçün mərkəzə getmişdim. Yayın cırhacır istisindən xəbərsiz olan kəndin qoynunda yerləşən mərkəz yenilətmə və gənclərin səs-küyü ilə maraqlı istirahətə və əyləncəyə çağırış edirdi, sanki. Burada əyləşdiyim yerdən vaxtilə pioner düşərgəsinin yerləşdiyi, indi isə ondan əsla iz belə, qalmayan yer açıqca görünürdü. Bəli,

## Ağbulaq-Naxçıvanın dörd fəsil turizm ilki

”Turizm sahəsi həm regionların inkişafı, həm də ki ölkənin iqtisadi potensialının möhkəmləndirilməsi üçün, Azərbaycanın imici, dünyaya inteqrasiyası üçün çox mühüm vasitədir”, - deyən ölkə Prezidenti cənab İlham Əliyevin vacib və lazımi tövsiyələrinə blokada Naxçıvanında turizmlə bağlı görülən işlər böyük töhfədir. Bəli, Naxçıvan Ağbulaq turizmi ilə dünyaya inteqrasiya edəcəkdir. Bu, artıq xəyal yox, gerçəklikdir.

İlin dörd fəsli üçün turizm imkanları olan Ağbulaqda ötən il Xizək Mərkəzinin istifadəyə verilməsi ilə xəyalən yenidən ”Artek”ə getmişdim. Yenə o xatirələr, yenə o müqayisələr... Lakin bu dəfə müqayisələr xatirələri üstələdi. O mənada ki artıq Ağbulaq ikinci bir turizm növünə - dağ-xizək turizminə qucaq açırdı. Əgər yay turizmini sevənlər Ağbulağın gözəlliyini kəşf edib evlərinə qayıdırdılarsa, xizək mərkəzi yay turizmi üçün buranı seçənlərin qış istirahəti üçün məhz buraya qayıtmaları deməkdir.

Beləliklə, Naxçıvanda ilk mövsümsüz turizm məkanı yarandı. Maraqlıdır, dörd fəslin turizm məkanı olan Ağbulaq, sən demə, vaxtilə toxunmadıqca yatan, yazda, baharda da qış yuxusundan doymayan bir resurs olaraq qalırdı. Necə ki, müstəqilliyimiz ilə yaşıd olan Naxçıvan blokadasının ilk acınacaqlı illərində qaranlıq, ərzaq və əkinəyararlı torpaq qıtlığı təbii resurslarımıza doğru gedildikcə insanların yollarını işıqlandırdı, enerji və ərzaq təhlükəsizliyinə, əkinəyararlı torpaqlara sahibləndirdi, Ağbulaqdakı təbii resurslara illər öncədən gedilincə də bu gün dünyanın ən məşhur turizm bölgələri ilə bir sırada dayanan turistik məkan yaradıldı. Bu məkan bir sərvət, xəzinədir. Ölkəmizdə zamanla mənfəət gətirəcək bir xəzinə. Ali Məclis Sədrinin mərkəzin açılış mərasimində vurğuladığı kimi: ”İki il ərzində qurulan dağ-xizək mərkəzi bu gün muxtar respublikanın sərvətinə çevrilib. Bir sözlə, Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılması tək bir kəndin, muxtar respublikanın deyil, ölkəmizin inkişafına xidmət edəcəkdir”.

***Mətanət MƏMMƏDOVA***

# 9 İyun - Azərbaycanı Qurtuluşa aparan tarixi yol

*1993-cü ilin 9 iyun tarixi Azərbaycan dövlətçiliyinin, müstəqilliyinin xilası günü olaraq tariximizdə yer alıb. Həmin tarixi gündə Ümummilli Lider Heydər Əliyev xalqın çağırışına səs verərək Naxçıvandan Bakıya qayıdıb, müstəqilliyimizi və dövlətçiliyimizi xilas edib. Həmin gün ölkəmizin taleyində mühüm tarixi hadisə olaraq yer alıb və Qurtuluşa doğru mühüm addım atılıb. O addım suverenliyin, sabitliyin və sosial-iqtisadi inkişafın təməli olmaqla, Azərbaycanın gələcək inkişaf perspektivlərini müəyyənləşdirib, xalqımızı nicat yoluna çıxarıb. Bu gün əgər Azərbaycanın uğurlu inkişafından, Zəfər tariximizdən söz açırıqsa, unutmamalıyıq ki, həmin tarixi dövrün mürəkkəb, ziddiyyətli məqamları Azərbaycanı yox olmaq təhlükəsi ilə üz-üzə qoymuşdur.*





Bu günün real mənzərəsi - Azərbaycanın beynəlxalq miqyasda etibarlı tərəfdaş, demokratik ölkə kimi tanınması, dinamik inkişafımız, öz sözünü gücü ilə deyən müzəffər ordumuz, ümumilikdə ölkəmizin keçdiyi uğurlu inkişaf yolu məhz Ulu Öndər Heydər Əliyevin uğurlu siyasətinin məntiqi nəticəsidir. Azərbaycanın müstəqil dövlət kimi təbii sərvətlərinə sahib çıxması, milli mənafeyini, iqtisadi və strateji maraqlarını müdafiə etmək gücünə malik olması, məhz Ümummilli Lider Heydər Əliyevin müdrik siyasətindən qaynaqlanıb. Bütün həyatını Azərbaycanın və xalqın taleyi ilə bağlayan Ulu Öndər Heydər Əliyev müstəqil dövlətimizin tarixini yaradıb. Azərbaycanı, Azərbaycan xalqını böyük bəladan, dəhşətli fəlakətdən Ulu Öndər Heydər Əliyev fenomeni, cəsarəti və müdrikliyi qoruyub-saxlayıb. Ulu Öndər Heydər Əliyevin fəaliyyəti, iradəsi və xalqa arxalanması, xalqın da öz Müdrik Liderinə güvənməsi və geniş xalq məhəbbəti vəhdətdə birləşdiyindən, Azərbaycan dövlətçiliyi məhvolma təhlükəsindən xilas oldu. Xalqımızı nicata aparan yol 1993-cü ilin 9 iyun tarixində başlanmışdır. Həmin gün Ulu Öndər Heydər Əliyev Azərbaycanın milli dövlətçilik ənənələrinin bərpa edilməsi və milli dövlətçiliyin möhkəmləndirilməsi istiqamətində çox mühüm bir addım atmışdı. Məlumdur ki, 1990-cı ilin Qanlı 20 Yanvar hadisələrindən sonra Ulu Öndər Heydər Əliyevin Moskvadan Azərbaycana qayıtması, Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan Ali Məclisinə deputat seçilməsi, artıq bu mübarizə alovunu gücləndirdi və Müdrik Siyasətçinin uzaqgörən siyasəti xalqın buxovlanmış arzularının yolunda ümid çırağı yandırmış oldu. Ulu Öndər Heydər Əliyevin Sədrliyi ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Ali Məclisinin iclasında Muxtar Respublikanın adından "sovet sosialist" sözlərinin götürülməsi, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, aypara və səkkizguşəli ulduz nişanlı bayrağının dövlət bayrağı kimi qəbul edilməsi və bu barədə Azərbaycan Parlamenti qarşısında qanunvericilik təşəbbüsü qaydasında məsələ qaldırılması haqqında tarixi qərarlar qəbul edildi. Naxçıvanda həyata keçirilən demokratik tədbirlər bütün Azərbaycana nümunə oldu. 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası demokratik qüvvələrin tələbi ilə bir sıra tarixi qərarlar qəbul edildi. Dövlətin adı dəyişdirilərək "Azərbaycan Respublikası" adlandırıldı, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi təsdiq olundu. 1991-ci il avqustun 26-dan Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan KP-nin fəaliyyəti dayandırıldı və onun bütün strukturları ləğv edildi.

## "1993-CÜ İLİN İYUN AYINDA AZƏRBAYCANDA BÖYÜK DÖVLƏT BÖHRANI YARANDI"

Ali Sovetin xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyası 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Bəyannamə qəbul etdi. Nəhayət, 1991-ci il oktyabrın 18-də Ali Sovetin Sessiyasında tarixi sənəd qəbul edildi. Amma Azərbaycan müstəqillik əldə etmiş olsa da, ölkədə hökm sürən ictimai-siyasi proseslər ölkəni məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. O dövrdə siyasi hakimiyyətdə olanların səriştəsizliyi üzündən vətəndaş müharibəsinə rəvac verildi, milli dövlətçiliyimiz ikinci dəfə məhv olmağın bir addımlığına gətirildi. Belə bir zamanda, xalq milli dövlətçiliyi qorumaq və vətəndaş müharibəsinin ağır fəsadlarından qurtulmaq üçün Ümummilli Lider Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdi. Ulu Öndər o dövrün Azərbaycanını belə xarakterizə edirdi: "1993-cü ilin iyun ayında Azərbaycanda böyük dövlət böhranı yarandı. Azərbaycan dağılmağa başladı, o vaxtkı iqtidar ölkəni idarə edə bilmədi. Gəncədə toqquşma baş verdi, qan töküldü. Gəncədə başlayan hərəkat Azərbaycan ərazisinin, demək olar ki, yarıdan çoxunda hakimiyyəti öz əlinə aldı. Vaxtilə məni təqib edən, Naxçıvanda məni devirmək, məni Azərbaycandan sıxışdırıb çıxarmaq istəyən o vaxtkı iqtidar belə bir zamanda əlacsız qaldı və mənə müraciət etdi. Ancaq ondan əvvəl mənə müraciət edənlər bizim partiyanın üzvləri, Azərbaycanın müxtəlif təbəqələrinin nümayəndələri, ziyalıları oldu. Onlar məni yenidən Bakıya dəvət etdilər".

Xatırladaq ki, 1993-cü il iyunun 4-də Gəncədə başlayan qanlı hadisələr Azərbaycanı milli istiqlaldan məhrum olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. AXC-Müsavat iqtidarı bu addımın qarşısını almaq üçün heç bir iş görmək gücündə deyildi. Şəxsi maraqların ictimai maraqlardan üstün tutulması, xəyanətə yol verilməsi, dövlətçiliyimizi təhlükə qarşısında qoyan addımların atılması məhz belə bir situasiyanın yaranmasına səbəb olmuşdur.

Ulu Öndər Heydər Əliyev 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gəldi. Ulu Öndərin bu qayıdışı Vətənin xilası və xalqın qurtuluşu idi. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Bu gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi. Ümummilli Lider Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycanın siyasi hakimiyyətinə gəlməsəydi, indi nə Azərbaycandan, nə də ölkəmizdəki bugünkü əmin-amanlıqdan və inkişafdan danışmaq olmazdı.

## "ƏGƏR RESPUBLİKADA İCTİMAİ-SİYASİ SABİTLİK OLMASA, SAĞLAM İCTİMAİ-SİYASİ MÜHİT OLMASA, HEÇ BİR SOSİAL-İQTİSADİ PROQRAMDAN, YAXUD PROBLEMLƏRİN HƏLL EDİLMƏSİNDƏN SÖHBƏT GEDƏ BİLMƏZ"

Sonrakı hadisələr daha müsbət məcralara yönəldi, ölkədə nisbətən sabitlik yarandı və oktyabrın 3-də Ulu Öndər Heydər Əliyev xalqımızın böyük əksəriyyəti tərəfindən ölkə Prezidenti seçildi. 1993-cü ildə ikinci dəfə hakimiyyətə qayıdışı ilə Ulu Öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyev Özü ilə bərabər Azərbaycana siyasi müdriklik gətirdi. "Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz",- deyirdi Ulu Öndər Heydər Əliyev. Məhz Ümummilli Liderin zəngin siyasi təcrübəsi və yüksək idarəçilik bacarığı vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Ulu Öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi-siyasi və mənəvi-psixoloji gərginliyi aradan qaldırdı. Müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutdu. Ümummilli Lider Heydər Əliyev "Müstəqilliyin qoruması onu əldə etməkdən qat-qat çətindir" məntiqi ilə nəhəng dövlət quruculuğu işlərinə başladı.




Müstəqilliyin əvəzsiz nemət olduğunu və xalqın tarixi taleyində çox önəmli rol oynadığını böyük qürur hissi ilə bəyan edən Ulu Öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi: "Azərbaycan xalqı azadlığını əldə etmiş xalq kimi yaşayacaq, öz müstəqil dövlətini qoruyacaq, saxlayacaq və müstəqil Azərbaycan Respublikası əbədi yaşayacaqdır", - deyən Dahi Öndər Heydər Əliyevin müəllifi olduğu 1994-cü ilin 20 sentyabrında nəhəng neft müqaviləsi - "Əsrin müqaviləsi" imzalandı. Ölkənin sənaye ölkəsinə çevrilməsində, hərbi potensialının güclənməsində, kadr potensialının hazırlanmasında və s. proseslərdə uğurlar müşayiət olundu və bütün sahələrdə dönüş yarandı. Böyük Şəxsiyyət Heydər Əliyevin siyasi kursu nəticəsində, Azərbaycanın dünyaya inteqrasiya olunmasına töhfələrini verdi.

1993-cü ildən başlayaraq, dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində görülən işlər və atılan məqsədyönlü addımlar Azərbaycanın bugünkü uğurları üçün ən etibarlı təməl oldu. Bir sözlə, əgər müstəqillik Azərbaycanın suveren dövlət kimi mövcud olması, tarixi zərurətdən irəli gələn hadisə idisə, Azərbaycanın müstəqilliyi əbədiliyi və dönməzliyi Ümummilli Lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlı olan müasir tariximizin danılmaz faktıdır.

## AZƏRBAYCANDA MÜSTƏQİL DÖVLƏTÇİLİK ƏNƏNƏLƏRİ FORMALAŞDIRILDI

Böyük Qayıdışın möhtəşəm nəticələri təkcə Azərbaycanın dövlət müstəqilliyinin əbədiləşdirilməsi, ölkəmizin parçalanmasının qarşısının alınması və vətəndaş müharibəsinin dayandırılması ilə ifadə edilmir. Bu gün Azərbaycan regionun, Avropanın və ümumilikdə, dünya ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsində xüsusi əhəmiyyət kəsb edən bir ölkəyə çevrilmişdir. Beynəlxalq təşkilatlar regiondakı bütün layihələrdə Bakının mövqeyini nəzərə alırlar. Ölkəmiz sosial-iqtisadi inkişafın tempinə görə dünya dövlətləri arasında liderlər sırasındadır.

Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə yenidən qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələr məkanında nəzərəçarpan dönüş yarandı. Elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil siyasi inkişaf dövlətimizin möhkəmləndirilməsində, sivil dünyaya sıx inteqrasiya prosesinə qoşulma-




sında və xalqımızın strateji mənafelərini təmin edən modern cəmiyyətin qurulmasında həlledici rol oynadı.

Bu gün Azərbaycanda müstəqil dövlətçilik ənənələri formalaşdırılmışdır və şübhəsiz ki, bu mühüm nailiyyətin əldə edilməsində Ümummilli Lider Heydər Əliyevin fədakar xidmətlərinin müstəsna əhəmiyyəti vardır. Azərbaycan Prezidenti İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasi xəttinə sadiq qalaraq, müstəqil ölkəmizi inamla gələcəyə doğru aparır. Azərbaycanın uğurlu inkişafı təmin edilib və qarşıda duran bütün əsas vəzifələr uğurla icra edilib. Bunun təməlində düşünülmüş siyasət, həyata keçirilən islahatlar və dövlət proqramları dayanır. Ötən dövrdə uğurlu inkişaf tarixini yaşayan Azərbaycanda həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat Azərbaycanın əsas inkişaf göstəriciləridir. Ötən on doqquz il, aydın şəkildə göstərdi ki, İlham Əliyev Prezidentliyi dövründə ölkə həyatının bütün sahələrində verdiyi vədlərin hamısını yerinə yetirmiş və sosial problemləri həll etmişdir. Son 19 ildə həyata keçirilən iqtisadi siyasətin əsasən, sosialyönümlü mahiyyət daşıması bir sıra reallıqlarla şərtlənərək, cəmiyyətin sosial sifarişini əks etdirmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində, ölkə iqtisadiyyatının mühüm sahəsi olan qeyri-neft sektorunun inkişafında, eləcə də, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayan kənd təsərrüfatının dinamik və dayanıqlı inkişafının təmin edilməsi istiqamətində davamlı işlər görülür. Neft kapitalının insan kapitalına çevrilməsi strategiyasına uyğun olaraq, humanitar sahələrin inkişafı istiqamətində gərgin iş aparılıb. Təhsil sisteminin daha da təkmilləşdirilməsinə dair tədbirlər həyata keçirilib, dünyanın mötəbər universitetlərində minlərlə Azərbaycan gəncinin təhsil alması üzrə Dövlət Proqramı gerçəkləşdirilib, yeni universitetlər açılıb, təhsildə özəl sektor formalaşıb. Bütün bu və ya digər amillər müstəqillik dövründə Azərbaycanın əldə etdiyi nailiyyətlər - tarixi gerçəkliklərdir. Müasir Azərbaycanda nəhəng enerji layihələri, ölkənin hər yerində abadlaşma, müasirləşmə, ölkənin dünyada tanınması və milli maraqlara xidmət edən çoxsaylı tədbirlər gerçəkləşib. Həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib.

## ZƏFƏR TARİXİMİZİN TƏMƏLİNDƏ ULU ÖNDƏR HEYDƏR ƏLİYEV SİYASƏTİ DAYANIR

Son illər ölkəmizin iqtisadi qüdrətinin artması milli ordumuzun möhkəmlənməsinə də geniş imkan yaradıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açıb. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılıb. Məhz bunun nəticəsidir ki, Azərbaycan Cənubi Qafqaz regionunda ən güclü orduya malik ölkə statusunu daşıyır. Bu gün Azərbaycanda istehsal olunan bir çox hərbi məhsullar ordumuzun potensialının gücləndirilməsində əsas amillərdən biridir. Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olması ilə nəticələndi. Mükəmməl texnologiyamız, döyüş ruhumuzun yüksəkliyi, xalq-iqtidar birliyi, həmrəylik Azərbaycanın qalib dövlət kimi adını tarixə yazdı. Tarixi qələbənin qazanılmasında Ali Baş Komandan, Müzəffər Azərbaycan Ordusudur. 44 gün davam edən Vətən müharibəsində qəhrəmanlıq göstərən vətən oğullarının şücaəti, mücadiləsi milyonlarla insanlara qələbə sevincini yaşatdı. Prezident İlham Əliyevin özünün də dediyi kimi, O, ata vəsiyyətini, Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusunu - Qarabağın mənfur düşmənlərdən, işğalçı ermənilərdən azad olunmasını gerçəkləşdirdi.

Xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən bu tarixi gündə gənclərimiz vətənpərvərlik nümayiş etdirdilər. "Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib", - deyə Azərbaycan Prezidenti İlham Əliyev bildirib. Onu da qeyd edib ki, bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Xalq-iqtidar birliyi Azərbaycanı ZƏFƏRƏ, QƏLƏBƏYƏ apardı. Ali Baş Komandanımız, möhtərəm Prezidentimiz cənab İlham Əliyev müzəffər ordumuzun qələbəsi ilə Azərbaycan tarixinə silinməz tarixi izlər həkk etdi, Zəfər tarixini əbədi olaraq tariximizin parlaq səhifəsinə həkk etdi.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə sürətli yenidənqurma və bərpa işləri həyata keçirilir. 30 ilə yaxın bir zamanda xarabazara çevrilmiş torpaqlarımızda canlanma müşahidə olunmaqdadır. Bu gün Qarabağın işğaldan azad olunmuş hər yerində, hər bir kəndində, böyük quruculuq işləri gedir. Möhtəşəm inşaat layihələri reallaşır, "Ağıllı kənd"lər yaradılır. Bütün bu uğurların təməlində Ulu Öndər Heydər Əliyev siyasəti dayanır.

***Zümrüd BAYRAMOVA***

# Bəs nə oldu, Avropa..?!

## Yaxud, Toyvo Klaarın "Qarabağ ermənilərinin qərarları olmadan hərtərəfli nizamlama əldə etmək mümkün deyil" bəyanatı vasitəçi Aİ-yə tərəf suallar doğurur

***Deyəsən, Avropa siyasətçiləri arasında da Qarabağ mövzusunda fikir haçalıqları get-gedə daha da dərinləşir və bu mövcudluq özünü Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toyvo Klaarın İrəvana səfəri zamanı işlətdiyi ifadələrində də açıq-aydın sezildi...***






Klaarın "Azatutyun" ("Azadlıq") radiosunun erməni bürosuna verdiyi müsahibəsi zamanı bir müddət əvvəl Avropa İttifaqı Şurasının prezidenti Sarl Mişelin bəyanatına, ümumiyyətlə, paralellik təşkil etməyən fikirlərlə çıxış etməsi isə, əslində, suallar doğurur və ağıla gələn ilk sual da budur: bəs nə oldu, Avropa..?!

### Klaarın İrəvandakı fikirlərindən təxribat iyi gəlir!

Məsələyə daha dərindən yanaşaq. Azərbaycan və Ermənistan liderlərinin mayın 22-də Brüsseldə keçirdikləri görüşlərindən sonra Şarl Mişel Qarabağ erməniləri ilə bağlı fikirlərində bəyan etmişdi ki, bu kəsim Azərbaycanın Qarabağ regionunun ("Dağlıq Qarabağ" ifadəsi də işlədilmədi) əhalisidir, yəni ermənilərin və onların havadarlarının iddia etdikləri kimi "artsax xalqı" deyil.

İndi isə gəlin Toyvo Klaarın çoxsaylı suallar doğuran (hətta təxribat xarakterli) fikirlərinə diqqət çəkək. "Mən hesab edirəm ki, nəticə etibarı ilə Qarabağ erməniləri həllin bir hissəsi olmalıdırlar. Və aydın görünür ki, Qarabağda yaşayanlar (erməniləri nəzərdə tutur) hərtərəfli həllin əldə edilməsində maraqlıdırlar. Şəxsən mən bu insanların fikirləri olmadan nizamlanmanın necə əldə edilə biləcəyini görmürəm", deyən bu avropalı dolayı yolla artıq çoxdandır cəhənnəmə göndərilmiş "status" məsələsini gündəmə qaytarmağa çalışdığını açıq-aydın nümayş etdirir (?!)

### Toyvo Klaar Şarl Mişelin Qarabağ ermənilərini "etnik" adlandırmasına qarşıdır (?!)

Klaar Şarl Mişelin Brüsseldə Qarabağ ermənilərini etnik xalq adlandırmasına qarşı olduğunu da "Azatutyun"a müsahibəsində ifadə edib, üstəlik Aİ Şurasının prezidentinin bəyanatından "səhv" də çıxarmağa cəhd göstərib.

Misal üçün, deyib ki, həmin bəyanat Ermənistanda narahatlıq doğurub: "... Bizim hər birimiz münaqişənin necə başladığını bilirik. Onu birdəfəlik bağlamaq lazımdır. Prezident Mişel öz bəyanatnda (Brüsseldəki) bir çox məsələlər barədə danışmadı. Bu bəyanat həlli tələbi olan bütün sualları əhatə etməyib. Məsələ ondadır ki, biz münaqişənin birdəfəlik nizamlanmasının vacibliyi haqqında hər dəfə vurğulamışıq. Biz bu istiqamətdə işləyirik", Toyvo Klaar demək olar ki, Aİ Şurasinin prezidenti Şarl Mişelin fikir və bəyanatlarına qarşı çıxdığını açıq şəkildə sərgiləyib.

Onu da xatırladaq ki, Aİ-nin xüsusi nümayəndəsi İrəvana səfəri zamanı baş nazir Nikol Paşinyan, XİN rəhbəri Ararat Mirzoyan, Təhlükəsizlik şurasının sədri Armen Qriqoryan və parlamentin vitse-spikeri Ruben Rubinyanla da görüş keçirib. Klaarın Bakıya səfəri gözlənilir.



### Görünür, avropalılar Qarabağ ermənilərinin "statusu" barədə ona görə danşmırdılar ki, vasitəçi rollarını möhkəmləndirsinlər

Maraqlı məqamlardan biri də budur ki, Toyvo Klaar Qarabağ nizamlanması məsələsində Brüsselin Moskva ilə rəqabət apardığını iddia edib və bildirib ki, əsas məsələ "müəllif hüququ" deyil, prosesi irəliyə doğru çəkməkdir. Lakin onun "Azadlıq" radiosunun erməni bürosuna verdiyi müsahibəsindəki sözləri heç də bu reallığı əks etdirmir və Klaarın açıq-aşkar erməni mövqeyindən çıxış etməsi göz önündədir!

Bəli, indi belə bir sual yaranıb - Şarl Mişel Toyvo Klaarın mesajlarını necə qiymətləndirəcək? Və Toyvo Klaar Bakıya səfərində sözügedən müsahibəsini necə malalayacaq?

İlk baxışdan görünən budur ki, Avropa siyasətinin də öz biclikləri var. Misal üçün, belə nəticə hasil edə bilərik ki, avropalılar Qarabağ ermənilərinin "statusu" barədə ona görə danışmırdılar ki, vasitəçi rollarını möhkəmləndirsinlər. Yəni bu, sadəcə, ehtimaldır və yaxın gələcəkdə biz nəyin-necə və hansı istiqamətdəki məcraya doğru yönələcəyini də proseslərdən görəcəyik.

### Bakı üçün heç nə itirilməyib, əslində, Aİ özünün vasitəçilik statusunu qoruması üçün cəhdlər göstərməlidir

Ancaq hələlik Mişel Klaarın əks fikirlərinə münasibətini açıqlamayıb və biz onun məhz əvvəlki mövqeyində qalmasını gözləyirik. Amma indiki zamanda diplomatiya sahəsində ayağısürüşkənliklərin yumşaq desək artmasını, dəbə minməsini müşahidə edirik.

Fakt budur ki, Klaarın bəyanatı Avropanın erməniyönlü yanaşmasını nümayiş etdirir. Lakin bütün qeyd edilənlərlə yanaşı, çox yəqin ki, biz rəsmi Bakının da reaksiyasını görəcəyik. Ən azından, Klaar Bakıya gələcək və İrəvanda səsləndirdiyi bəyanatının izahatını (əslində isə, hesabını) verəcək. Bakı üçün heç nə itirilməyib, əslində, Aİ özünün vasitəçilik statusunu qoruması üçün cəhdlər göstərməlidir.

**Rövşən RƏSULOV**

# Çin ilə Avropanı birləşdirəcək multimodal dəhliz Azərbaycandan keçəcək



***Asiya və Sakit okean regionu ölkələri - Çin-Qırğız Respublikası-Özbəkistan-Türkmənistan-Azərbaycan-Gürcüstan-Türkiyə-Avropa beynəlxalq multimodal nəqliyyat dəhlizinin yaradılması layihəsinin iştirakçı ölkələrinin dəmiryolu administrasiyaları bu dəhlizlə yük daşımaları üçün güzəştlərin tətbiqi barədə razılığa gəliblər. SİA qırğız mətbuatına istinadən xəbər verir ki, bu barədə "Kyrgyz Temir Zholu" şirkətinin direktor müavini Dastan Usubakunov bildirib.***

Onun sözlərinə görə, layihə Çindən Avropaya qarışıq yük daşımalarını nəzərdə tutur: "Layihə çərçivəsində yüklərin böyük hissəsinin konteyner qatarlarla daşınması planlaşdırılır". D.Usubakunov 2022-ci ilin mart ayında Daşkənd şəhərində layihənin iştirakçı ölkələrinin dəmiryolu administrasiyalarının görüşünün keçirildiyini xatırladıb və növbəti görüşün iyunun 29-da Bişkekdə keçirilməsinin planlaşdırıldığını bildirib.

Xatırladaq ki, Daşkənd görüşündə yüklərin fasiləsiz daşınmasının təşkili, həmçinin iritonnajlı konteynerlərin daşınması üçün nəzərdə tutulmuş fitinq platformalarının vaxtında göndərilməsi və sözügedən beynəlxalq multimodal nəqliyyat dəhlizi üzrə tarif dəhlizi ilə bağlı razılıqlar əldə olunub.

***Müasir dünyamızda Azərbaycan dinlərarası, millətlərarası münasibətlərdə dünya üçün örnək, tolerantlıq və dözümlülük ənənələri ilə zəngin olan, milli-mənəvi dəyərlərinə sadiq dövlətdir. Ölkədə formalaşan bu və ya digər dəyərlər artıq Azərbaycan cəmiyyətini səciyyələndirən ənənəyə çevrilib. Azərbaycan müstəqillik illərində dövlət dini azlıqların hüquqlarının qorunması və təminatı sahəsində çox mühüm və ciddi addımlar atıb. Müxtəlif dini mənsubiyyətə malik insanlar cəmiyyətimizin ayrılmaz tərkib hissəsi olaraq dövlətin diqqət, qayğı və himayəsini eyni dərəcədə üzərlərində hiss edirlər.***

# Azərbaycanda milli azlıqların etnik-mədəni dəyərləri qorunur

### "AZƏRBAYCAN SABİTLİK ADASIDIR VƏ ƏSRLƏR BOYU YƏHUDİ XALQI ÜÇÜN İSTİ, QONAQPƏRVƏR VƏ TƏHLÜKƏSİZ BİR EV OLMUŞDUR"

Dünyada baş verən dinlərarası münaqişələr və müxtəlif ölkələrdə getdikcə artmaqda olan anti-semitizm və irqçilik fonunda Azərbaycanda bütün xalqların, o cümlədən yəhudilərin azad və dinc şəraitdə birgə yaşamaları, tam dini etiqad azadlığına malik olmaları



### İlham Əliyev: "Beynəlxalq təşəbbüslərlə bölgədə və dünyada dinlərarası münasibətlərin yüksək səviyyədə tənzimlənməsi işinə öz töhfəmizi veririk"





Bu gün ölkəmizdə bütün millətlərin və dinlərin nümayəndələri tam qarşılıqlı anlaşma, milli həmrəylik şəraitində yaşamaları üçün bütün şərait yaradılıb. Sosial bir hadisə olan multikulturalizm və tolerantlıq cəmiyyətdə əmin-amanlıq, bəşəriyyətdə isə sülh deməkdir. Təbii ki, multikulturalizmin olması cəmiyyətdə bərabərliyin, demokratiyanın, tərəqqinin, sosial rifahın, başqa sözlə, ədalətin bərqərarı deməkdir. Müxtəlif siyasi, iqtisadi və coğrafi şəraitlərdə yaşayan xalqların ədalətə çıxışı məhz ilk növbədə çoxmədəniyyətliliyin təmin edilməsindən asılıdır. Bir sözlə, Azərbaycan bu sahədə dünyaya örnək bir dövlət kimi özünü təsdiqləyə bilib. Əminliklə vurğulayaq ki, Azərbaycan öz dini müxtəlifliyi ilə fəxr edir. Çünki Azərbaycan dünyanın ən qədim xristian dövlətlərindən birinin yerləşdiyi məkan olub və xristian icması əsrlər boyunca Azərbaycan tarixinin formalaşmasında iştirak edib. Xristian və müsəlman icmaları ilə yanaşı yaşayan təqribən 30 minlik yəhudi icması da Azərbaycanda iki min ildən bəri yaşamaqdadır. 2003-cü il martın 9-da Bakıda yeni yəhudi sinaqoqu açılmışdır. Bu, Avropada ən böyük sinaqoqdur. 2003-cü ilin sentyabrından Azərbaycanda ilk yəhudi məktəbi fəaliyyət göstərir. 2010-cu ilin oktyabrında isə Bakının Xətai rayonunda yerləşən üçmərtəbəli təhsil kompleksi ən müasir tələblər səviyyəsində istifadəyə verilmişdir. 450 yerlik mərkəzin digər təhsil müəssisələrindən fərqi burada yəhudi mədəniyyəti əsaslarının tədris olunmasıdır.

çox təqdirəlayiqdir. Azərbaycanda yaşayan yəhudilər də hər il öz bayramlarını qeyd edirlər. Bayram vaxtı sinaqoqda ibadət edir, şofar (musiqi aləti) səsləndirir, xüsusi ayinlər yerinə yetirir, yardıma ehtiyacı olan şəxslərə kömək göstərir, bir masa ətrafına toplaşaraq günahlarının bağışlanması üçün dualar edirlər. Azərbaycanda qeyd olunan Roş-Ha-Şana və digər yəhudi bayramlarının unikal cəhəti müsəlmanlarla xristianların yəhudi bacı-qardaşlarının sevincini, xoşbəxtliyini bölüşməsi kimi xarakterizə olunur. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, "Ölkəmizin bütün xalqları, o cümlədən yəhudi icması Azərbaycanda həmişə əmin-amanlıq şəraitində yaşamış, heç bir ayrı-seçkiliyə məruz qalmadan dil və mədəniyyətini, adət-ənənələrini qoruyub saxlamışdır. Müstəqil Azərbaycan dövləti bu gün də öz mütərəqqi tarixi ənənələrinə sadiqdir. Müasir demokratik prinsiplərə uyğun olaraq ölkədə insan haqlarının təminatı, milli azlıqların etnik-mədəni dəyərlərinin qorunması və inkişaf etdirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindəndir".

Təsadüfü deyil ki, bu günlərdə İsrail Dövlətinin Prezidenti İsxak Hersoq Azərbaycanın Müstəqillik Günü münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı təbrikində ölkələrimiz xalqlarımız arasında sıx əlaqələrə əsaslanan tarixi tellərin olduğunu vurğulayıb: "Azərbaycan sabitlik adasıdır və əsrlər boyu yəhudi xalqı üçün isti, qonaqpərvər və təhlükəsiz bir ev olmuşdur. Burada, İsraildə Azərbaycan əsilli vətəndaşlar cəmiyyətimizə böyük töhfələr verirlər və onlar milli rəngarəngliyimizin mühüm hissəsidir. Bu iki icma xalqlarımız arasında canlı körpü rolunu oynayır, ikitərəfli əlaqələrimizi daha da gücləndirir".

Müasir dövrümüzdə ölkəmiz bütün xalqların, bütün səmavi dinlərə tapınanların azad yaşadığı bir dövlətdir. Bütün bunlara rəğmən deyə bilərik ki, Azərbaycan dünyanın multikulturalizm, tolerantlıq, dözümlülük, humanitar əməkdaşlıq mərkəzinə çevrilib.

Azərbaycanda dövlətin dəstəyi hesabına sinaqoqlar, məscidlər, kilsələr tikilib və tikilməkdədir. Əlbəttə ki, dünya ölkələri üçün nümunəyə çevrilən Azərbaycan modeli ölkəmizə gələn hər bir kəsdə maraq doğurur. Qonaqlar abadlaşdırılmış Pravoslav Dini-Mədəni Mərkəzini, Katolik məbədini, İmamzadə kompleksini, möhtəşəm Heydər Məscidini görür və bunu heyranlıq hissi ilə qarşılayır və Azərbaycan təcrübəsini öyrənməyə çalışırlar.

Ölkəmizdə qədim zamanlardan müxtəlif dini etiqadların, o cümlədən müsəlmanların, yəhudilərin və xristianların sülh və əmin-amanlıq şəraitində birgə yaşaması hər kəsə bəllidir. Son illər qloballaşan dünyamızda müxtəlif bölgələrdə dini radikalizm, terrorizm, dözümsüzlük və ksenofobiya kimi halların artdığı dövrdə Azərbaycan özünəməxsus tolerantlıq təcrübəsi ilə beynəlxalq ictimaiyyət üçün uğurlu bir model təqdim edir. Hər bir dinin nümayəndələri rahat yaşayır, milli bayramlarını qeyd edir, öz dilində təhsil almaq imkanına malikdirlər. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin vurğuladığı kimi, bu gün dünyada nümunəvi tolerantlıq örnəyi, sivilizasiyalararası və mədəniyyətlərarası dialoq məkanı kimi tanınan Azərbaycanda tarixən dinlər əmin-amanlıq, qarşılıqlı hörmət və etimad şəraitində fəaliyyət göstərmiş, fərqli mədəniyyətlərin təmsilçiləri olan ayrı-ayrı xalqlar və etnik icmalar ümumi Vətən sevgisi, azərbaycançılıq məfkurəsi ətrafında sarsılmaz birlik və həmrəylik nümayiş etdirmişlər: "Cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin qorunub-saxlanılması, multikulturalizmin dəstəklənməsi və təşviq edilməsi müasir mərhələdə həyata keçirdiyimiz dövlət siyasətinin başlıca məqsədlərindən biridir. Ölkəmizdə yaşayan müxtəlif xalqlara öz milli-mənəvi dəyərlərini, dini etiqadını, adət-ənənələrini qoruyub-saxlamaq, dil və mədəniyyətini inkişaf etdirmək üçün demokratik şərait təmin edilmişdir".

### "DÜNYANIN MÜXTƏLİF YERLƏRİNDƏ DİNİ MƏZHƏB ZƏMİNİNDƏ QAN TÖKÜLÜR, MÜHARİBƏLƏR ALOVLANIR, BÖYÜK FACİƏLƏR YAŞANIR"

Dövlət başçısının mütəmadi olaraq din xadimləri ilə görüşü, dini konfessiyalara maddi yardımlar edilməsi, dini ibadət yerlərinin təmir-bərpa olunması, ölkədə həyata keçirilən din siyasəti demokratik dövlət quruculuğu kursuna, eləcə də dövlət-din münasibətlərinin mənəvi və hüquqi müstəvidə tənzimlənməsi prinsipinə əsaslanır. Ölkəmizdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi fəaliyyət göstərir. Azərbaycan Prezidentinin məlum Fərmanı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu yaradılıb. Məlumdur ki, multikulturalizmin həyat tərzinə çevrildiyi Azərbaycanın dünyaya tolerantlıq nümunəsi olaraq daha geniş tanıdılmasının vacibliyini, eləcə də ayrı-ayrı ölkələrdəki müxtəlif multikultural modellərə xas fəlsəfi, sosial, siyasi və digər aspektlərin Azərbaycan reallığında təhlili və təşviqinin əhəmiyyətini nəzərə alaraq, Azərbaycan Prezidenti Cənab İlham Əliyevin məlum Sərəncamı ilə paytaxtımızda Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradıldı. Azərbaycanda multikulturalizm ənənələrinin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədi ilə 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin imzaladığı Sərəncamı ölkəmizdə multikultural mühitə olan münasibətin daha bir real ifadəsinə çevrildi.

Dövlət başçısının çıxışlarının birində bildirdiyi kimi, "İndiki şəraitdə biz görürük ki, dünyanın müxtəlif yerlərində dini məzhəb zəminində qan tökülür, müharibələr alovlanır, böyük faciələr yaşanır". Cənab Prezident onu da qeyd edib ki, elə etməliyik ki, həm Azərbaycanda, həm yaşadığımız bölgədə vəziyyət müsbət istiqamətdə inkişaf etsin: "Biz adada yaşamırıq, biz bu bölgədə yaşayırıq və yaşayacağıq. Ona görə biz həm ölkə daxilində bu məsələləri daim diqqət mərkəzində saxlayırıq və hesab edirəm ki, beynəlxalq təşəbbüslərlə bölgədə və dünyada dinlərarası münasibətlərin yüksək səviyyədə tənzimlənməsi işinə öz töhfəmizi veririk".

Həqiqətən də, Azərbaycan istər ölkə səviyyəsində, istərsə də beynəlxalq səviyyədə dinlərarası və çoxmədəniyyətli harmoniyanın inkişafına təkan verir və bu nailiyyətin davamlı olması üçün tədbirlər həyata keçirir.

Azərbaycanın ictimai-siyasi həyatında xristian, yəhudi etiqadlı vətəndaşlar yaxından iştirak edir, töhfələrini verirlər. Ölkəmizdə mövcud olan vəziyyət, reallıqlar dövlət siyasətinin məntiqi nəticəsidir. Azərbaycanda olan multikulturalizm məktəbi, tolerantlıq bu gün yeni mərhələdədir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Silahlanma nə qədər davam edəcək?





***Dünyanın geosiyasi mənzərəsinə nəzər saldıqda, tamamilə fərqli görüntü müşahidə edilir və artıq bir çox dövlətlərin bir-birinə əzələ nümayiş etdirdiyinin şahidi oluruq. Ələlxüsus bir çox ölkələr silahlanmaya üstünlük verirlər və bunun da qabaqlayıcı tədbir olduğu sirr deyil. Sözsüz ki, hər bir ölkə özünü müdafiə etmək gücünə malik olmalıdır və hərbi potensial vacib məqamdır, amma son vaxtlar bu istiqamətə daha böyük diqqət ayrıldığı da nəzərdən qaça bilməz, hansı ki, bu faktın özü bir çox məqamlardan xəbər verir.***

Təhlil

Heç şübhəsiz ki, Rusiya ilə Ukrayna arasında müharibə başladıqdan sonra bütün dünyada vəziyyət tamamilə fərqli bir şəkil aldı. Qərb Rusiyanı öz sanksiyaları ilə diz çökdürmək qərarına gəldi və bu istiqamətdə addımlar da atıldı. Buna nə dərəcədə nail olduğu müzakirə mövzusu deyil. Müzakirə mövzusu odur ki, silahlanma, eləcə də əzələ mümayişi ön plana keçdi. Hər bir halda dünyanın ən fövqəl dövlətlərindən biri hədəfə alındı, hansıki, bu heç də təsadüfi sayıla bilməz və bununla geosiyasi mənzərə tamamilə dəyişdi. Bununla yanaşı, bir çox ölkələrdə silahlanma daha çox müşahidə edilməyə başladı və buradan da aydın olur ki, hər bir dövlət ehtiyat tədbiri görmək məcburiyyətində qaldı.

Bir müddətdir ki, Rusiyanın diplomatik mühasirədə olduğunu görürük və bunun nə qədər davam edəcəyi barədə də proqnoz vermək mümkünsüzdür. Çünki bu zamana qədər fövqəl dövlət kimi tanınan bir ölkənin Avropada bir dənə də tərəfdaşı artıq yoxdur. Serbiya və Macarıstanın timsalında Rusiyaya qarşı sanksiyaların əleyhinə olan Avropa dövlətləri belə işğalçı müharibəyə haqq qazandıra bilmirlər, baxmayaraq ki, bu dövlətlərin Rusiyanın neftinə və qazına böyük ehtiyacları var. Deməli, Ukraynada apardığı müharibə səbəbindən Rusiyaya haqq qazandırılmayacaq və sanki bütün dünya bu ölkənin əleyhinədir.

Əlbəttə ki, Avropada tərəfdaşı olmadığı təqdirdə Rusiyanın yeganə ümid yer Çin hesab oluna bilərdi və belə də olduğunu hər kəs müşahidə etdi. Xüsusilə, ”Rusiya və Çin: yeni dövrdə əməkdaşlıq” adlı Moskvada təşkil olunan sayca 7-ci olan konfransda hər iki ölkənin elm adamlarının və diplomatların bir araya gəlməsi müşahidə edilənlərin doğru olduğuna əminlik yaratdı. Nəzərə çatdıraq ki, artıq 2015-ci ildən bu vaxta qədər keçirilən konfransda, elə həmin dövrdən etibarən hər iki ölkə arasındakı əlaqələrin strateji və praktik tərəfləri müzakirə edilir. Onu da diqqətə çatdıraq ki, 2014-cü ildə Rusiya Krımı ilhaq etmişdi, Donbasda isə separatçı bölgə yaratmışdı və bir il sonra, yəni 2015-ci ildən etibarən konfranslara start verilməsi, hər il keçirilməsi təsadüfi sayılmır və bu, Qərblə münasibətləri gərginləşən Rusiyanın üzünü Avropadan Çinə çevirdiyi anlamına gəlir.

Rusiyanın üzünü Çinə çevirməsi də durmadan Qərbi qıcıqlandırır, çünki Çinin artan hərbi gücünü təkzib etmək mümkün deyil və bu fonda Kremlin Çinə meyl etməsi də hadisələrin gedişinə öz təsirini göstərir. Təsir isə ondan ibarətdir ki, Qərb sözügedən iki dövlətə qarşı siyasətini sərtləşdirməyə davam edir. Bu həm də ona görədir ki, Çinin əzələ nümayişi Qərbin heç də xoşuna gəlmir və Rusiyaya qarşı təpkilər, təzyiqlər, sanksiyalar olduğu bir vaxtda Çinin bu dövlətlə yaxınlığı Qərbin planlarına qarşı olmaq kimi təzahür edir.

Bir məqam da diqqətdən yayınmamalıdır ki, konfransda Qərbin Rusiya və Çinə qarşı təzyiq siyasəti yürütdüyü bildirilib. Çıxış edənlər bunu açıq şəkildə bəyan ediblər. Yəni, Çin də, Rusiya da Qərbin qıcıqlandığının fərqindədir və buna əhəmiyyət vermədiklərini belə açıq şəkildə nümayiş etdiriblər. Bu isə o deməkdir ki, hər iki dövlət bir yerdə Qərbə qarşıdır və buna görə zərrə qədər çəkinmədiklərini də gizlətmək niyyətləri yoxdur. Bir sözlə, Çin də Rusiya kimi, bir növ Qərbi hesaba almadığını göstərir. Hətta görünən odur ki, elə bil Qərbə meydan oxunur.

Baxmayaraq ki, hədəf Rusiyadır, Kreml özü də hər zaman Qərbi günahlandırıb və bir çox hərəkətlərinə görə ittiham edib. Bir zamanlar Ukrayna ilə Rusiya sərhədlərinə NATO qoşunlarının cəlb edilməsini Rusiya açıq-aşkar bildirirdi və bu məsələdə Qərbi hüquq pozuntusunda, normaları pozmaqda günahlandırırdı. Hal-hazırda da Rusiya yenə Qərbi günahlandırır, amma bu dəfə NATO qoşunlarını Asiyaya yeritməkdə ittiham edir. ”NATO Avropa ilə yanaşı Asiyaya da daxil olub və Rusiya, eləcə də Çin sərhədlərinin bütün perimetri boyunca problemli nöqtələr yaradıb, hansıki bu, silahlanma yarışının artmasına gətirib çıxarıb”, deyə Rusiya xarici işlər nazirinin müavini İqor Morqulov ”Rusiya və Çin: yeni dövrdə əməkdaşlıq” konfransında çıxış edərkən bildirib. Yəni, Qərb onun tərəfindən açıq şəkildə hədəfə alınıb və günahlandırılıb. Təbii ki, bütün bunlar da təsadüfi sayıla bilməz.

Qərbin ünvanına Rusiya tərəfinin ittihamları ola bilər və Rusiya xarici işlər nazirinin müavini özünü də, təmsil etdiyi ölkəsini də haqlı hesab edə bilər. Məsələ burasındadır ki, Rusiyanın özü də silahlanmaya şərait yaradıb. Əslində, Gürcüstana qarşı Rusiyanın 2008-ci ildəki işğalçı müharibəsi də, qeyd olunduğu kimi, Krımın ilhaq edilməsi də, Dönbasda separatçı bölgə yaratması da, nəhayət, bu ilin əvvəllərində Ukraynaya qarşı savaşı, müharibəsi də Qərb ölkələrini silahlanmaya sövq edib və nəticə də göz önündədir. Qərbin məhz Rusiyanın bu qədər hərəkətlərinə biganə qalmayacağı da Rusiyaya bəlli idi. Elə isə niyə buna rəvac verirdi? Əgər silahlanma Rusiya üçün həyəcan təbili sayılırsa, niyə buna əvvəlcə özü şərait yaradırdı?

Həmçinin Çin özü də Qərbi silahlanmaya sövq etməkdə ittiham edir, amma Avstraliya, Hindistan və Yaponiya olmaqla bir çox yanaşı, bölgə ölkələrin silahlanmasına Çin özü rəvac verib. Daha doğrusu, həmin ölkələri silahlanmaya vadar edib. Çünki, Çinin Tayvan adasına iddiaları həmin ölkələr üçün başqa seçin qoymayıb. İlk əvvəldən qeyd etdiyimiz kimi, qabaqlayıcı tədbir, özümü müdafiə etmək gücünə malik olmaq və hərbi potensial vacib məqamdır. Hər bir ölkənin də öz hərbi potensialını artırmaq istəyi, yaxud niyyəti başadüşüləndir.

Göründüyü kimi, silahlanma sanki artıq davamlı prosesə çevrilib və elə bil ölkələr bu mənada yarışa giriblər. Məsələ burasındadır ki, bu proses bir növ təbii hal alıb və dünyanın indiki düzənin bunun səbəbləri də bəllidir. Hər bir halda silahlanma müsbət nəticələr vəd etmir və bu arzuolunan deyil, amma bir məqamı da diqqətdən qaçırmaq lazım deyil ki, bu gün dünyaya əzələ nümayiş etdirən Çin və Rusiyanın beləcə güc nümayiş etdirmək siyasəti dəyişmədiyi təqdirdə silahlanma hələ davam edəcək.

***İnam Hacıyev***





# "Milli Qurtuluşdan başlayan Zəfər yolu"

*Yeni Azərbaycan Partiyası Ağdaş rayon təşkilatında bu mövzuda tədbir keçirilib*





***Yeni Azərbaycan Partiyası Ağdaş rayon təşkilatında "Milli Qurtuluşdan başlayan Zəfər yolu" mövzusunda tədbir keçirilib. Əvvəlcə ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.***

Tədbiri giriş sözü ilə açan YAP Ağdaş rayon təşkilatının sədri Əlişah Rəcəbov müstəqil Azərbaycan dövlətinin Milli Qurtuluşdan Zəfərə qədər keçdiyi yola nəzər salıb, Ulu Öndərin ölkəmiz və xalqımız naminə görmüş olduğu misilsiz işlərdən bəhs edib. Bildirib ki, xalqı vətəndaş qarşıdurmasından, səfalətdən, ölkəni parçalanmaq təhlükəsindən xilas etmək gücündə olan Heydər Əliyev qısa zaman ərzində ölkədə daxili sabitliyi təmin etdi, Azərbaycanın inkişaf yolunun təməlini qoydu. Vurğulayıb ki, Azərbaycanın bu gün qazanmış olduğu möhtəşəm Zəfərə gedən yol 15 iyun 1993-cü il tarixindən başlayıb.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Cavid Osmanov müstəqilliyin ilk illərində - AXC-Müsavat hakimiyyəti dövründə üzləşdiyi problemlərdən söhbət açıb. Onun sözlərinə görə, yeganə nicat yolunu Heydər Əliyevin qayıdışında görən Azərbaycan xalqının təkidli tələbilə Ulu Öndərin Bakıya qayıdışı ilə Azərbaycanda həyat öz axarına qayıtdı və ölkəmiz öz tərəqqi yoluna qədəm qoydu. Ulu Öndərin siyasi kursunu hər bir sahədə uğurla davam etdirən Prezident, YAP sədri İlham Əliyev ölkəmizin ərazi bütövlüyünü təmin etdi və Azərbaycanı qalib ölkəyə çevirdi.

Görüşdə çıxış edən partiya fəalları Azad Gözəlov, Turanə Şıxəliyeva, Arzu Musayeva və Aysu Əzimova bildiriblər ki, Ulu Öndərin əsasını qoyduğu ideyalar bu gün Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir.

# "Tarixi Zəfərimiz Milli Qurtuluşdan başlayır"




***08.06.2022 ci il tarixində Yeni Azərbaycan Partiyası Göyçay rayon təşkilatının inzibati binasında "Tarixi Zəfərimiz Milli Qurtuluşdan başlayır" adlı tədbir keçirilib.***



Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Yeni Azərbaycan Partiyası Göyçay rayon təşkilatının inzibati binasında yerləşən büstü önünə gül çiçək dəstələri düzülüb, dahi şəxsiyyətin xatirəsi ehtiramla yad edilib. Tədbirdən öncə partiyamızın yaradıcısı, xalqımızın ümummilli lideri Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükütla yad edilib. Tədbirdə Yeni Azərbaycan Partiyasi İdarə heyətinin üzvü, Milli Məclisin deputatı Cavid Osmanov, Rayon Ağsaqqallar Şurasının sədri Xəlil Orucov, Şəhid ailələri qayğı cəmiyyətinin sədri Eldəniz Rüstəmov, gənc partiya üzvləri iştirak edirdilər. Tədbiri giriş sözü ilə açan YAP Göyçay rayon təşkilatının sədri Sahib Şükürov bildirib ki, Azərbaycan xalqının taleyində böyük əhəmiyyət daşıyan elə günlər var ki, həmin günlərdə onun gələcək həyatını müəyyən edən mühüm başlanğıcların əsası qoyulub. Belə günlərdən ən önəmlisi tariximizə qızıl hərflərlə yazılmış 15 İyun - Milli Qurtuluş Günüdür. Milli Qurtuluş Günü Azərbaycan xalqı üçün sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gündür. İyunun 15-i xalqımız üçün əsl qurtuluş tarixidir.

Yeni Azərbaycan Partiyasi İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Cavid Osmanov çıxış edərək 1993-cü il iyunun 15-i Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi daxil olub və dövlətçiliyimiz yox olmaq təhlükəsindən xilas edilib. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu. Bu gün Azərbaycan tarixinin ən şərəfli, ən sevincli günlərini yaşayır. Artıq "Qarabağ münaqişəsi" deyilən bir termin tarixə qovuşub. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan ordusutorpaqlarımızı işğaldan azad edib, ərazi bütövlüyümüz təmin olunub. Azərbaycanın tarixi qələbəsinin şəksiz və şəriksiz qəhrəmanı isə Cənab Ali Baş Komandandır! Daha sonra Şəhər 4 saylı tam orta məktəb ərazi partiya təşkilatının sədr müavini F. Rzayeva, Göyçay Dövlət İdarəetmə və Texnologiya kollecində Ərazi Partiya təşkilatının sədri S.Qurbanova, Gənlər Mərkəzi - Fəal gənc H.Məcidli, Ağsaqqallar Şurasının Sədri X.Orucov və başqaları Milli Qurtuluş Gününün əhəmiyyətindən danışdılar. Sonda partiya sıralarına yenicə üzv olmuş gənclərə partiya vəsiqələri təqdim edildi.

# Qazaxda Milli Qurtuluş Günü ərəfəsində partiya sıralarına yeni qəbul olunmuş gənclərə üzvlük vəsiqələri təqdim edilib





***Yeni Azərbaycan Partiyası Qazax rayon təşkilatı Qazax Müalicə Diaqnostika Mərkəzi ərazi partiya təşkilatında 15 iyun - Milli Qurtuluş Günü münasibətilə tədbir keçirilib.***

Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin və şəhidlərin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

YAP Qazax rayon təşkilatının sədri Anar Nəbiyev müstəqilliyimizin təhlükə altında olduğu bir zamanda Ulu Öndərin hakimiyyətə qayıdışının Azərbaycanı böyük təhlükələrdən xilas etdiyini, sabitliyə, əmin-amanlığa yol açdığını bildirib. Vurğulayıb ki, 44 günlük Vətən müharibəsindən sonra bütün azərbaycanlılar dünyanın hər yerində Milli Qurtuluş Gününü qalib xalqın qalib övladları kimi alnıaçıq, üzüağ olaraq qeyd edirlər.

Tədbirdə Qazax Müalicə Diaqnostika Mərkəzi ərazi partiya təşkilatının sədri Kamandar İbrahimov, partiya üzvləri - Arifə Mirzəliyeva, Xatirə Əliyeva, Afiq Mustafayev da çıxışlarında Milli Qurtuluş Gününün xalqımızın tarixində dönüş nöqtəsi olduğunu söyləyiblər. Sonda partiya sıralarına yeni qəbul olunmuş gənclərə üzvlük vəsiqələri təqdim olunub.

# “Sosial şəbəkələrdən çirkin maraqlar üçün istifadə edənlər az deyil”

***“Bu, bir reallıqdır ki, sosial şəbəkələr artıq insanların virtual yaşam tərzinə çevrilib. Hər bir şəbəkə istifadəçisi özünəməxsus tərzdə bundan istifadə edir. Əksər insanlar burada ünsiyyət, iş, maarifləndirmə, xəbər və s. istiqamətlər üzrə məşğuldurlar". Bunu Sağlam İnkişaf və Maarifləndirmə İctimai Birliyinin sədri Anar Xəlilov "Səs" qəzetinə açıqlamasında bildirib.***





Anar Xəlilov təəssüf hissi ilə bildirdi ki, sosial şəbəkələrdən çirkin maraqlar üçün istifadə edənlər də az deyil: ”Bunlara cinayətkar dəstələrin üzvləri, cəmiyyətdə insanları çaşdırmağa və xaos yaratmağa cəhd edən insanlar daxildir. Buna qarşı isə sosial şəbəkələrdə nizamlı qaydada mübarizə metodları hələ də tam mövcud deyil. Zorakılıq təhqir elementlərinə qarşı sosial şəbəkə adminləri müəyyən mübarizə aparır. Ancaq bu da yetərli deyil. Əsasən diqqət etsək, elə sosial şəbəkələrdə aktiv olan sağlam əqidəli insanlar özü etiraz etməklə belə hallara qarşı mübarizə aparırlar. Hesab edirəm ki, bu mübarizə metodu çox vacib amildir. Amma yetərincə effektli deyil. Hüquq-mühafizə orqanlarının da bu istiqamətdə fəaliyyətini izləyirik. Ancaq sosial şəbəkələrin miqyasını nəzərə alsaq, onların resurslarının buna yetərincə çatmadığının da şahidi oluruq. Xüsusilə, son dövrlər biz hansısa qrupların dövlətin və cəmiyyətin imicinə xələl gətirən statuslarına rast gəlirik. Verilən informasiyaların heç bir mənbəyə əsaslanmadan yayılmasının şahidi oluruq. Eyni zamanda, cəmiyyətdə baş verən müəyyən hadisələrin qızışdırıcı əməllərə səbəb olan formada təqdim edilməsi halları da sosial şəbəkələrdə artıq dəb halını almışdır. Şəhid və qazi adlarından istifadə etməklə özünə siyasi reytinq qazanmaq halları bir növ ənənə halını almaqdadır. Hesab edirəm ki, müasir elmi texnologiyaların inkişafını nəzərə almaqla ənənəvi mübarizə metodlarımızda islahat aparmaq zamanı artıq çatmışdır. Bəlkə də bir qədər gecikirik. Hesab edirəm ki, bununla məşğul olan ayrıca bir qurum yaradılmalı müasir elmi texnologiyaların vasitəsilə, yeni proqram təminatlarının köməyi ilə bu qruplar, şəxslər ifşa edilməlidirlər”.

A.Xəlilov onu da bildirdi ki, müvafiq hökumət qurumları fəaliyyətlərində virtual dünyanın müasir qaydalarını öyrənməli və gündəlik iş prosesini ona uyğunlaşdırmalıdır: ”Düzdür biz onların fəaliyyətlərini özündə əks etdirən sosial şəbəkə səhifələrini və qruplarını izləyirik. Onlar burada fəaliyyətlərini, uğurlarını yayımlayır və maarifləndirmə həyata keçirirlər. Amma yaxşı olardı ki, müasir proqram təminatlarının köməkliyi ilə onlar təkcə reklam xarakterli statuslar yox, eyni zamanda onların imicinə xələl gətirən statuslara qarşı da mübarizə xarakterli fəaliyyət quralar. Həmin statusların böhtan xarakterli olmağını aydınlaşdırmalı və yaxud şikayət xarakterli olmasını müəyyənləşdirərək cavab tədbirləri görülməlidir. Cavab tədbirləri şablon xarakterli yazılarla olmamalıdır. Eyni zamanda, bu gün dünyada bu hallara qarşı effektiv mübarizə metodlarından biri də vətəndaş cəmiyyəti institutlarının resurslarından istifadədir. Bu sahədə biz uğurlu addımlar ata bilərik. Bu Azərbaycanda güclü vətəndaş cəmiyyəti institutları mövcuddur. Hesab edirəm ki, bu sahədə təcrübəsi olan vətəndaş cəmiyyəti institutları ilə birlikdə uzun müddətli layihələrə start verilməsinin artıq vaxtıdır. Layihələr qeyd etdiyim kimi şablon və şüarçılıq xarakterli yox müasir elmi texnoloji metodlara söykənməlidir. Təbii ki, digər ən effektiv mübarizə metodu vətəndaşlarımızdır. Hər bir vicdanlı vətəndaşımız bu istiqamətdə ayıq olmalı və öz mövqeyini bildirməlidir. Ümumiyyətlə, bir vətəndaş cəmiyyətinin nümayəndəsi olaraq sosial şəbəkələrdə son vaxtlar bu tip çirkin əməllərə xidmət edən materialların çoxalması məni narahat edir. Bu materiallar ölkəmizdə gedən uğurlu inkişafa, aparılan islahatlara, işğaldan azad olunmuş torpaqlarımızda geniş quruculuq işlərinə, stabilliyimizə və ən nəhayət dövlətçiliyimizə qarşı yönəlmişdir. Hər birimiz bu günə qədər olduğu kimi yenə də birliyimizin qorunması istiqamətində bu əməllərə qarşı ayıq olmalı öz töhfəmizi verməliyik. Tanrı Azərbaycanımızı qorusun!”

***Gülyana***

# "Qidalarla bağlı neqativ hallar müşahidə olunur"

***"Uşaq bağçalarında daim problem olub. Çünki bura nisbətən qapalı bir müəssisə hesab olunur. Uşaqlarla davranış və onların qidalanması bağça müdriyyəti və oradakı işçilərin təsiri altındadır". Bu sözləri SİA-ya açıqlamasında Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov deyib.***



Onun sözlərinə görə, Sovet vaxtından bəri bağçalarda problem olub: ”Çox yaxşı haldır ki, bağçaların nəzarəti Təhsil Nazirliyinə həvalə olunub. Çünki əvvəllər İcra Hakimiyyəti orqanlarına tabe idi və qida məsələsi də orada həll olunurdu. AİB 4 il əvvəl tele-layihə çərçivəsində uşaq bağçalarında monitorinqlər aparmış və qidaların anti-sanitar vəziyyətdə olduğu müşahidə edilmişdir. Biz bunu ictimailəşdirmişdik”.

Eyyub Hüseynov sözlərinə belə davam edib: ”AQTA yarandıqdan sonra bu sahədə bağçalarda müəyyən işlər aparılır. AQTA və Təhsil Nazirliyi 1600-dən çox bağçaya öz sahəsi üzrə nəzarət edərək monitorinq aparır. Qidalarla bağlı neqativ hallar müşahidə olunur. Düşünürəm ki, bu işlərin nəticəsində bağçalarda vəziyyət yaxşılaşacaq. Lakin biz o zaman ən yüksək nəticələrə nail olarıq ki, burada KİV-in də iştirakı olsun. Həmçinin, valideyn təşkilatları da iştirak etsin.

Özəl bağçalarda isə qeyri-şəffaflıq mövcuddur. İctimaiyyətin buradan xəbəri yoxdur. Lakin AQTA-nın burada iş aparmaq hüququ var. AİB olaraq valideynləri fəal olmağa, problemlə qarşılaşdıqda 1003 AQTA ”Qaynar xətti”nə məlumat verməyə çağırırıq”.

***Ayşən Vəli***



Lalə Mehralı

# İntihar imtahanları - SOS

***Valideynlərin, müəllimlərin, abituriyentlərin ən gərgin günləridir- ali məktəbə qəbul imtahanları başlayıb. Son günlərdə bir neçə abituriyent intihar etdi, istədiyi nəticəni toplaya bilmədiyi üçün. Onların arasında ziyalı ailənin övladı, məktəb birincisi, yarışlar qalibi, mükafatlar sahibi də var.***

Bu, ilk deyil, son da olmayacaq. Hər il universitetə qəbul və orta məktəbin buraxılış imtahanlarının yaratdığı stress və zəif imtahan nəticələri bizə bu şoku yaşadır. Artıq alışmışıq buna, immunitet yaranıb hamımızda.

Uşaqlar var qüvvələri ilə oxuyurlar, bütün güclərini yüksək bal toplamağa səfərbər edirlər. Həm müəllim, həm valideyn tələb etdiyi üçün, həm də ödənişsiz yer qazanmaq üçün. Çünki 4-5 il repititor ilə ali məktəbə hazırlaşdıqları üçün valideyn soyulmuş soğana çevrilib. Çünki təhsil sistemində hər il bir hoqqabazlıq edən nazirlik məktəblərdəki özbaşınalığı, korrupsiyanı ciddi problem hesab etmədiyi, məktəbləri bazara çevirdiyi üçün bu uşaqlar məktəbdə təhsil ala bilməyib illərlə repetitor yanına getməli olublar.

Abituriyent yeməyindən, geyməyindən kəsib hər ay 150-300 manat müəllim pulu ödəyən valideyni üçün ödənişsiz fakültəyə qəbul olmağı vacib hesab edir, özünü buna borclu hiss edir. Valideyn də bunu umur övladından. Düzmü edir? Həm düz edir, həm də səhv. Düz edir, çünki orta statistik azərbaycanlı üçün bu rəqəmlər böyükdür. Səhv edir, bunu övladına deyə-deyə onu borclu hiss etdirdiyi üçün.

Bəs müəllimlər? Onlar nə edir? Məktəbdəki dərsini yola verir, əlavə işlədiyi kursa ya da evinə tələsir, repetitorluq etməyə. Məktəbdə bir dəfə başa saldığı mövzunu ikinci dəfə izah etmir, soruşan şagirdə qarşı aqressiv olur, təhqir edir. Amma repetitorluq etdiyi uşaqlara 10 dəfə də başa sala bilir. Bunun göstəricisidir ki, məktəbdə heç bir nəticəsi olmayan uşaqlar repetitor yanında əla nəticələr göstərir.

Biz özüldən səhv edirik əslində. Uşağı marağı olduğu sahədən uzaqlaşdırırıq, sevdiyi sənət dalınca getməyə qoymuruq, özümüzün gözümüzdə qalan arzularımızı onun vasitəsi ilə gerçəkləşdirmək istəyirik. Biçmə-tikmə dərsi almaq istəyən qızımızı tibb oxumağa məcbur edirik, robotlarla maraqlanan oğlumuzu hüquqşünas olmağa vadar edirik. Hamı beynəlxalq əlaqələr oxuyur. Axırı nə olur? Ya intihar, ya da diplomlu və işsiz gənclər ordusu.

Halbuki, adi müşahidələrimiz göstərir ki, peşə qazananlar daha yaxşı yaşayır, daha çopx pul qazanır, biznes qururlar. Diplomluların isə çoxu işsizdir, işləyənlər də ”quru maaşla” güclə dolanır. Deməli, bir çox valideynlərə sadəcə doplom adlı kağız parçası lazımdır, övladının gözəl bir peşə ilə, bizneslə irəli çıxması, daha yaxşı yaşaması yox. ”Uşaqlarıma diplom vermişəm” deyib fəxr edənləri hamımız görmüşük.

Valideyn var ki, övladı imtahana gedəndə arxasınca qışqırır: ”Suallara cavab yaza bilməsən evə gəlmə!”. Əgər valideyn bir az zəhmlidirsə və dediyi övladı üçün nisbətən qorxu ifadə edirsə, bu intihar üçün səbəb ola bilər. Çünki valideyn övladına ”hökmən ali məktəbə qəbul olmalısan” demək əvəzinə ”çalış ali məktəbə qəbul ol” demir. Yeniyetmə bu ərəfədə onsuz da gərginlik içində olur, üstəlik valideyn basqısı da əlavə olunursa məsələ qəlizləşir.

Təəssüflə deyim ki, bizim ölkəmizdə ali məktəbə qəbul olmanın ”prestiji” böyükdür. Gəncləri ”ali təhsil olmasa olmaz” fikri ilə böyüdür valideyn. Başqa cəmiyyətlərdə gənclər ali məktəbə qəbul ola bilməyəndə peşə öyrənirlər, bizim ölkəmizdə intihar edirlər.

Bundan sonra da edəcəklər

***Ötən cümə günü Ermənistan hakimiyyəti müxalifətin Ermənistan-Azərbaycan nizamlanması və Ermənistan-Türkiyə münasibətlərinin normallaşması ilə bağlı şərtlərini təsdiqləməyi planlaşdırdığı ölkə parlamentindəki iclasını pozub.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# "Qarabağın qalan kiçik hissəsi də istənilən halda Azərbaycana qayıdacaq"

*Sergey Markov: Ermənistanda müxalifətin təxribat törətmək, qalmaqal yaratmaq, Njde kimi millətçi vasitələrdən istifadə etmək cəhdləri onun çirkin niyyətlərini ortaya qoyur*





Baş nazir Nikol Paşinyanın respublikanın qanunverici orqanında çoxluğu təşkil edən hakim "Vətəndaş sazişi" fraksiyası iclasda iştirak etmək niyyətində olmadığını əvvəlcədən bəyan edib. Belə ki, parlamentdə müzakirələrə təşəbbüs göstərən müxalifətin "Hayastan" və "Mənim şərəfim" fraksiyaları sənədin təsdiqi üçün lazımi səs toplaya bilməyib. Ümumilikdə müxalifətin irəli sürdüyü şərtlərə baxmağa 107 deputatdan 33-ü gəlib və iclas baş tutmayıb. Nəticədə müxalifət hökumət binasının qarşısını kəsərək yeni görüş tələb edib və şənbə gecəsi daş atmaqla hüquq-mühafizə orqanlarının əməkdaşları ilə şiddətli toqquşmalara səbəb olub, nəticədə polis səs qumbaralarından istifadə etməli olub. Nəticədə 39-u hüquq-mühafizə orqanlarının nümayəndəsi olmaqla, 60 nəfər xəsarət alıb. Baş nazir Nikol Paşinyanın hakim "Vətəndaş sazişi" fraksiyası müxalifəti təxribatda ittiham edib.

Müxalifət qüvvələri Azərbaycan və Türkiyə ilə danışıqların davam etdirilməsi üçün bu məqamları parlamentin iclasında təsdiqləməyi planlaşdırırdı.

Düzdür, aprelin 17-də etirazlar başlayandan bəri polislə müxalifət arasında baş verən bu ən böyük toqquşmadan sonra etirazçılar həftəsonunu hakimiyyəti təhrik etmədən keçirdilər. Şənbə günü artıq adi hala çevrilmiş yürüşlər keçirilib, bazar günü isə müxalifət aksiya keçirməkdən tamamilə imtina edib.



Xatırladaq ki, mayın 28-də Ermənistan müxalifəti "Yeni Qarabağ hərəkatı"nın yaradıldığını elan edərək, Ermənistan-Azərbaycan nizamlanması ilə bağlı tələblərini səsləndirib. Müxalifət Ermənistandan tələb edib ki, Azərbaycanla danışıqlar zamanı Qarabağda yaşayan ermənilərin öz müqəddəratını təyinetmə və beynəlxalq səviyyədə tanınma hüququnun həyata keçirilməsində təkid etməyə davam etsin, eyni zamanda Qarabağın tamamilə Azərbaycanın nəzarətinə qaytarılması ssenarisini istisna etsin. Müxalifətçilər həmçinin Azərbaycan qoşunlarının Ermənistan ərazisindən çıxarılmasını, nəqliyyat kommunikasiyalarının dəhliz məntiqindən çıxarılması ilə bağlı danışıqlardan imtinanı, həmçinin Türkiyə tərəfindən erməni soyqırımının tanınmasını tələb ediblər.

Müxalifətin niyə əsas məqsədinə- Ermənistanın baş nazirinin vəzifədən çıxarılmasına- çata bilmədiyini Rusiya Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov"Moskva-Bakı"ya müsahibəsində şərh edib. Politoloqun şərhini oxucularımıza təqdim edirik.

**- Sergey Aleksandroviç, gəlin xatırlayaq ki, 2020-ci ilin noyabrında Nikol Paşinyan Rusiya və Azərbaycan liderləri ilə Qarabağla bağlı üçtərəfli bəyanat imzaladıqdan sonra İrəvanda müxalif düşüncəli insanlar ətrafdakı hər şeyi sözün əsl mənasında darmadağın etdilər. İndi müxalifət daha bir dəfə ciddi toqquşmalar təşkil etməyə çalışdı. Amma bu uğursuz oldu...**

- 2020-ci ilin noyabrından Nikol Paşinyan üçün vəziyyət dəyişdi, müxalifət üçün də dəyişdi. O vaxtdan bəri Ermənistanın baş naziri 2 dəfə hakimiyyətdə qalmağı bacarıb. İlk dəfə, üçtərəfli bəyanatın imzalanmasından dərhal sonra, demək olar ki, heç bir şansı olmadığı və hakimiyyətdən salınacağı göründəndə, ikinci dəfə, Paşinyan fraksiyası 2021-ci ilin yayında parlament seçkilərində qalib gələndə. Hansı ki, bu qələbələr bir daha müxalifətə müəyyən mənada son qoydu. Müxalifət qatarın onun üçün getdiyini anladı. Buna bu sənədin icrasının məsuliyyət daşıdığı üçtərəfli bəyanatın həyata keçirilməsinin tərəfdarı olan Rusiyanın mövqeyi də kömək edir.

İndi də Azərbaycanla Ermənistan arasında danışıqların gündəmində məqsədi ölkələr arasında münasibətləri normallaşdırmaq olan sülh sazişi olduğu bir vaxtda Ermənistan müxalifəti öz gündəmini irəli sürməyə çalışır, öz şərtlərini qoyur. Müxalifət bir neçə aydır ki, etiraz aksiyası keçirir. Amma Ermənistan hakimiyyəti parlamentdə müxalifətin gündəliyini müzakirə etmək cəhdlərinin qarşısını uğurla alır. Müxalifətin gündəliyi, müəyyən mənada, üçtərəfli bəyanatlara yenidən baxılmasıdır. Parlament çoxluğu tərəfindən belə bir təftişin pozulması ilə bağlı cümə günü baş verənlərin bir daha göstərdiyi kimi, Nikol Paşinyan vəziyyəti nəzarətdə saxlaya bilir. Bu vəziyyət bir daha göstərdi ki, baş nazir ölkənin qanuni lideridir. Müxalifət isə lazımi etiraz resursunu, onların aksiyalarına qoşulacaq lazımi sayda insanı toplaya bilmir. Paşinyanın mövqeyi kifayət qədər müdrikdir və o, seçdiyi strategiyanı ardıcıl olaraq saxlayır. Strategiya isə belədir ki, etiraz etmək istəyirlərsə, etiraz etsinlər.

Müxalifətin strategiyası gözləməkdir. O, başa düşür ki, xalq onu dəstəkləmir. Beləliklə, o, hakimiyyətin kobud səhvini, istifadə edilə biləcəkləri bir alətin görünüşünü gözləyərək keşik çəkir. Müxalifət üçün gözləmə rejimi belə bir siyasi saatdır. Ölkədə vəziyyət qeyri-müəyyən olaraq qalır. Paşinyan hələ də üstün gəlir.



**- İndiki müxalifətin arxasında "Qarabağ klanı" dayanır. O, "Qarabağın statusu" məsələsindən təzyiq aləti kimi istifadə edir. Müxalifətin elan etdiyi yeni "Qarabağ hərəkatı"nın reanimasiyası realdırmı?**

- Açığı, artıq "Qarabağ klanı"nın Ermənistanda hakimiyyətə qayıtmaq şansı yoxdur. Onun etdiyi şey heç bir şey haqqında çox danışmaqdan ibarətdir. Xalq artıq onu dəstəkləmir. Və dəstəkləməyəcək. Ona görə də müxalifətin "Qarabağ"dan alət kimi istifadə etməsi son nəticədə heç nəyə gətirib çıxarmayacaq. Baxmayaraq ki, təbii ki, bu, Paşinyanın əsəblərini pozacaq. Qarabağın qalan hissəsi istənilən halda Azərbaycana qayıdacaq. Onun hələ ki, Bakının nəzarətində olmayan yalnız kiçik bir hissəsi qalıb. Bu ərazilər artıq Ermənistanda 2-ci Qarabağ müharibəsindən əvvəl oynadıqları rolu oynamır. Regionda reallıq dəyişib. Rusiya problemi nəhayət həll etməkdə qərarlıdır. Vladimir Putin xatırladığımız kimi demişdi ki, beynəlxalq hüquqa görə Qarabağ Azərbaycandır.

**- Ötən gün müxalifətin mitinqlərində məşhur faşist əlaltısı Qaregin Njdenin imicindən necə istifadə etdiyinə dair görüntülər yayılıb...**

- Qaregin Njde obrazından istifadə mənə müxalifətin siyasi səhvi kimi görünür. Əvvəllər Ermənistanda revanşistlər, millətçilər tez-tez bu qalmaqallı fiquru təbliğ edirdilər. Ermənistandan kənarda da uğur qazandılar. Rusiyada belə qalmaqallı hallara tez-tez rast gəlirik. Amma bir sıra rusiyalı ekspertlər, digər şəxslər, o cümlədən mən faşistin şərəfləndirilməsinin qəti şəkildə yolverilməzliyi məsələsini qaldırdıqdan, Baş Prokurorluğa müraciətlər göndərdikdən sonra belə halların qarşısı alınıb. Ona görə də müxalifətin əhalinin revanşist təfəkkürlü hissəsinin hansısa psevdovətənpərvərlik hissləri ilə oynamağa çalışması təhlükəli meyillərin təzahürüdür və Ermənistanda kimin yenidən hakimiyyətə gəlmək istəməsi ilə bağlı çağırışdır ki, bunlar da millətçilər və revanşistlərdir. Ermənistanda müxalifətin təxribat törətmək, qalmaqal yaratmaq, Njde kimi millətçi vasitələrdən istifadə etmək cəhdləri yalnız onun niyyətlərini ortaya qoyur. Belə meyillərin, yaranmaqda olan sülhü sarsıdan bəyanatların Moskvada əsası böyük zəhmətlə qoyulan Azərbaycanla Ermənistan arasında sülhə doğru hərəkata qarşı olduğu aydındır.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
Səs
9 iyun
2022-ci il

# Messi çox qol vuracaq, Ronaldo qazandıracaq



***İllərdir bir-birinə əzəli rəqib sayılan Kriştianu Ronaldo ilə Lionel Messi yaşlanmalarına baxmayaraq, qollarını sıralamaqda davam edir. Apasport.az saytının məlumatına görə, millidəki son matçlar hər ikisi üçün məhsuldar keçib.***

Kriştianu Millətlər Liqasında İsveçrə ilə matçda dubl, Lionel isə Estoniya ilə yoldaşlıq görüşündə penta-trik edib. Analitiklər Portuqaliya və Argentina millisinin kapitanının məhsuldarlığını nəzərə alaraq, onların il ərzindəki durumlarını dəyərləndirib.

Mütəxəssislərin fikrincə, Leo 2022-ci ildə həmkarından daha çox qol vuracaq. Əmsallar belə deməyə əsas verir. Araşdırma zamanı onların həm millidə, həm də klub turnirlərində keçirəcəkləri matçlar nəzərə alınıb. 2022-ci il üçün qol sayına görə hazırda Ronaldo Messini 12:11 hesabı ilə qabaqlayır. Əgər Messi həmkarını -1,5 fora ilə üstələsə, təklif olunan kupon qalib sayılacaq. Analoji olaraq 1,5 fora ilə Ronaldo qalib hesab ediləcək.

Ekspertlər bu il CR7-nin 53, Leonun isə 54 qol vuracağını proqnozlaşdırır. Bu isə o deməkdir ki, Messi çox qol vuracaq, amma gümanlar özünü doğrutsa, Ronaldo mərc edənləri qazandıracaq.



# Dünyada qida təhlükəsizliyi necə tənzimlənir?

***"Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 2018-ci ildəki qərarına əsasən 7 iyun Ümumdünya qida təhlükəsizliyi günü kimi qeyd olunur. Bu gün qidanın təhlükəsizliyindən danışmaq çox çətin məsələdir. Çünki insan orqanizmi üçün orqanik olan məhsullar çox azdır". Bu sözləri SİA-ya açıqlamasında qida üzrə baş mütəxəssis Ağa Salamov deyib.***



Onun sözlərinə görə, ümumiyyətlə ət məhsullarından danışdıqda istər qanadlı heyvanları, istər iribuynuzlu və xırdabuynuzlu heyvanları baytarlar mütəmadi olaraq nəzarətdə saxlamalıdırlar: "Çünki bu məhsullardan yoluxan xəstəlik birbaşa orqanizm üçün təhlükəli, hətta ölümcül ola bilər. Ona görə də qida təhlükəsizliyində əvvəlcə baytarların daha sonra isə istehsalçının üzərinə yük düşür. Gigiyena qaydalarına riayət edilməlidir.

Təbii ki, maketlərdə də qida təhlükəsizliyinin təmin edilməsi aidiyyati şəxslərin üzərinə düşür. Yeni məhsulun saxlanma şəraiti düzgün olmalı, marketlər soyuducularla təmin olunmalı, çarpaz çirkənlənmənin qarşısının alınması üçün cinslərinə uyğun rəflənməlidir. Birbaşa tarladan süfrəyə, fermadan süfrəyə qədər istehsal olunmuş bütün məhsulların qida zəncirində qorunmalı, düzgün saxlanılmalı, daşınmalı, emal olunmalıdır.

Mütəxəssis açıqlaması

AQTA mütəmadi olaraq bununla bağlı reydlər keçirilməli və qida zəncirində hər hansı bir nöqsan aşkar edilərsə, təbii ki, onun da aradan qaldırılmalıdır. Qida təhlükəsizliyi qidanın təkcə mikrobioloji çirklənməyə məruz qalmaması demək deyil. Təbii ki, bunlar vacibdir. Amma qida təhlükəsizliyinin bir qolu da qidanın israf olunmamasıdır. Hər yerdə nə qədər məhsul istehsal olunur. Qidanın israf olunması Yer kürəsində ildə 9 milyon insanın aclıqdan ölməsinə səbəb olur. Yer kürəsində qidanın düzgün və ədalətli bölüşdürülməməsi ildə 9 milyon insanın aclıqdan ölməsi deməkdir. Qida təhlükəsizliyi qidanın sağlam şəkildə süfrəyə gəlməsi deyil. Burada qidanın israf olunmaması da böyük rol oynayır".

***Arzu Qurbanlı***

# Dünya birjasında qızıl və gümüş niyə ucuzlaşıb?



***Nyu-Yorkun COMEX əmtəə birjasında qızılın bir troya unsiyasının qiyməti 0,11% azalaraq 1 850 ABŞ dollarına bərabər olub. Bu barədə SİA birja məlumatlarına istinadən xəbər verir. Məlumata görə, COMEX-də gümüşün bir unsiyasının qiyməti 0,4% azalaraq 22,09 dollar təşkil edib.***

# Avtomobil yolu keçən piyadanı vuraraq öldürüb



***İyunun 6-da saat 17 radələrində Naxçıvan şəhərində şəhər sakini G.Şirinova idarə etdiyi "Hyundai" markalı avtomobillə yolu keçən həmyerlisi N.Məmmədovanı vurub.***

**Daxili İşlər Nazirliyindən SİA-ya verilən məlumata görə, nəticədə xəsarətlə xəstəxanaya yerləşdirilən piyada orada ölüb. Faktla bağlı Naxçıvan Şəhər Polis Şöbəsində araşdırma aparılır.**

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3220